18 dekabr 2019 №92 (1677) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Rəqs sənətimizin su sonası xatırlandı

### Əminə Dilbazinin 100 illik yubileyi möhtəşəm proqramla qeyd edildi

Bu il Azərbaycan xoreoqrafiya məktəbinin görkəmli nümayəndəsi, tanınmış rəqs ustası, milli rəqslərimizi sərhəd tanımadan dünyanın hər tərəfində böyük şövqlə nümayiş etdirən Xalq artisti Əminə Dilbazinin anadan olmasının 100 illik yubileyidir. Prezident İlham Əliyevin sentyabrın 4-də imzaladığı sərəncama əsasən, sənətkarın yubileyi silsilə tədbirlərlə qeyd edilir.

Dekabrın 16-da Heydər Əliyev Sarayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə unudulmaz rəqqasənin 100 illiyinə həsr olunmuş təntənəli gecə keçirildi. Ötən illər ərzində saysız-hesabsız rəqs sənətkarlarını yetişdirən, xeyli sayda musiqi nümunələrinin rəqslə portretini çəkən, insan ruhunun hərəkət dilini zəriflik və cazibədarlığı ilə tamaşaçıya çatdıran sənətkar yubiley gecəsində onu sevənlərin xatirəsində yenidən canlandı, yenidən sevgiyə qərq oldu. Mərasimə qatılan rəsmilər, mədəniyyət və incəsənət xadimləri, çoxsaylı sənətsevərlər Əminə Dilbazi sənətinin işığında unudulmaz bir rəqs, musiqi axşamı keçirdilər. Yubiley tədbirində respublikamızın rəqs




kollektivləri ilə yanaşı, qonaq kollektivlər də iştirak edirdi.

Əvvəlcə Əminə Dilbazinin ömür yolu və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirildi.

Sənətkar ömrünə qısa nəzər olan materialda onun Azərbaycan rəqs sənətinin çoxəsrlik ənənələrinin qorunub yaşadılmasında müstəsna xidmətləri qeyd olundu.

davamı səh. 3-də

## Bölgələrdə vətəndaşların növbəti qəbulu

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, dekabrın 17-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Saatlı rayonunda vətəndaşlarla görüşüb.

səh. 4

## Tunisdə İSESCO ölkələri mədəniyyət nazirlərinin konfransı

Dekabrın 17-də Tunis Respublikasının paytaxtı Tunisdə İSESCO-ya üzv ölkələrin Mədəniyyət Nazirlərinin 11-ci Konfransı keçirilib.

Konfrans "Tunis-İslam mədəniyyətinin paytaxtı – 2019" ili çərçivəsində təşkil olunub. Konfransa Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti qatılıb.

səh. 3

## "İrs" layihəsindən yeni kitabların təqdimatı

"Azərbaycan inciləri", "Gəncə – Nizami yurdu" və "Qədim və gözəl Qarabağ" adlı kitablar təqdim olunub.




Yeni nəşrlər Azərbaycan mədəni irsinin, adət-ənənələrinin, çoxsaylı abidələrin beynəlxalq miqyasda tanıdılması və təbliği məqsədilə Mədəniyyət Nazirliyi, "Paşa Həyat Sığorta" ASC və "IRS Publishing House"un birgə həyata keçirdiyi "İrs" silsiləsi layihəsi çərçivəsində ərsəyə gəlib.

səh. 3

## Prezident Kuboku uğrunda çövkən yarışı Bakıda davam edəcək

Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən, yaradılan və Şəki rayonunun Daşüz kəndində yerləşən Respublika Milli Atüstü Oyunları Mərkəzində Prezident Kuboku uğrunda milli atüstü oyunlarının keçirilməsi artıq ənənə halını alıb.

Oyunlar respublika ictimaiyyətində böyük marağa səbəb olmaqla xalqımızın qədim tarixi ənənələrinin bərpasına və dirçəldilməsinə xidmət edir. Dekabrın 13-də Respublika Milli Atüstü Oyunları Mərkəzində Prezident Kuboku uğrunda çövkən milli oyunu üzrə yarışlar başlanıb.

davamı səh. 4-də

# Ölkəmizdə ilk dəfə Vokalçılar Festivalı keçirilir

Dekabrın 17-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında ölkəmizdə ilk dəfə təşkil olunan Azərbaycan Vokalçılar Festivalının təntənəli açılış mərasimi keçirildi.

Azərbaycan Televiziyası "Mədəniyyət" kanalının layihəsi olan festival Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır.

Tədbiri giriş sözü ilə açan "Mədəniyyət" kanalının direktoru, festivalın bədii rəhbəri Ramil Qasımov qeyd etdi ki, ölkəmizdə vokal sənətinin görkəmli nümayəndələri yetişib, onların istedadı sorağı Azərbaycanın hüdudlarından kənara da yayı-




lıb. Vurğulandı ki, əsası qoyulan yeni festival bu janrın inkişafına töhfə vermək, yeni simaları üzə çıxarmaq məqsədi daşıyır.

Sonra səhnə Azərbaycan Dövlət Xor Kapellasının ixtiyarına verildi. Xalq artisti Gülbacı İmanovanın bədii rəhbərliyi ilə kollek-

tiv Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası, Cahangir Cahangirovun "Qəzəl" və Niyazinin "Arzu" bəstələrini ifa etdi.

Solistlər Zemfira İsmayılova, Şakir Mərdanov, Safura Aslanova, Elmina Həsənova, Məhsəti Cabbarova, İntiqam Allahverdiyev, Fidan Rüstəmova, Nigar Tağıyeva, Anton Ferştandt, Leyla Quliyeva, İsmayıl Pənahov, Adil Baxışlı və Emin Qəmərlinskinin ifalarında səslənən V.Adıgözəlovun "Çanaqqala" oratoriyası, Fikrət Əmirovun "Azərbaycan elləri", "Baharımsan", Qalib Məmmədovun "Sənsiz olan" mahnıları tamaşaçıların gur alqışları ilə qarşılandı.

Mövzunun davamı səh.2-də

# Nəsiminin məqbərəsindən fotolar

### Qəzetimizin fotomüxbiri Mədəniyyət Nazirliyinin dəstəyi ilə Hələb şəhərində ezamiyyətdə olub

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə bu il ölkəmizdə "Nəsimi ili" elan olunub və Azərbaycanın böyük şair və mütəfəkkirinin 650 illiyi silsilə tədbirlərlə qeyd edilir.

Yubiley ili çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda layihələr həyata keçirilir, İmadəddin Nəsiminin əsərləri müxtəlif dillərə tərcümə edilərək nəşr olunur, yaradıcılığına dair tədqiqatlar aparılır, ömrünü vətəndən uzaqda başa vuran şairin həyatı ilə bağlı yeni məlumatlar üzə çıxarılır.

Məlum olduğu kimi, İmadəddin Nəsiminin məzarı Suriya Ərəb Respublikasının Hələb şəhərindədir. Neçə illərdir hərbi münaqişənin davam etdiyi, böyük dağıntılara məruz qalmış şəhərdə şairin məqbərəsinin taleyi Azərbaycan cəmiyyətində narahatlığa səbəb olub.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Mədəniyyət" qəzetinin fotomüxbiri Orxan Əzim



28 noyabr – 3 dekabr tarixlərində Suriyanın Hələb şəhərində ezamiyyətdə olub.

davamı səh. 4-də



## Təsviri sənətdə təbiət və zəhmətin tərənnümçüsü

Bəzən tufanlı, bəzən də həzin Xəzəri, dənizi ram edən neftçiləri, Azərbaycan təbiətinin gözəlliklərini, zəhmət, elm, sənət adamlarını və qadın gözəlliyini tərənnüm edən Xalq rəssamı Nadir Qasımovun zəngin yaradıcılığı milli təsviri sənətimizdə mühüm yer tutur. Dekabrın 17-də Azərbaycan Milli İncəsənət Muzeyində rəssamın 90 illik yubileyinə həsr olunmuş sərginin açılışında iştirak edənlər bunun bir daha şahidi oldular.

davamı səh. 2-də

## Qəhrəmanlarının obrazında yaşayan kinorejissor

Görkəmli kinorejissor, Əməkdar incəsənət xadimi Fikrət Əliyevin xatirəsi dekabrın 16-da Nizami Kino Mərkəzində yad edildi. Rejissorun 80 illiyinə həsr edilən gecə Mədəniyyət Nazirliyi, "Azərbaycanfilm" kinostudiyası və Azərbaycan Dövlət Film Fondunun təşəbbüsü ilə təşkil olunmuşdu.

Sənətkarın yaradıcılığından bəhs edən videoçarxın nümayişindən sonra tədbiri açan "Azərbaycanfilm" kinostudiyasının direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev Fikrət Əliyevin Azərbaycan kinosunda yerindən danışdı, ərsəyə gətirdiyi filmlərin kinematoqrafiyamızda yeni bir səhifə olduğunu vurğuladı.

Diqqətə çatdırdı ki, Fikrət Əliyev həlè sağlığında bütün arxivini Dövlət Film Fonduna təqdim edib və tədbirin başlanğıcında təqdim olunan videoçarxda da məhz həmin foto və videolentlərdən istifadə edilib.

Daha sonra tədbir Əməkdar artist Elxan Qasımovun aparıcılığı ilə davam etdi. O, rejissorla tələbəlik illəri, kinostudiyada ilk çalışmağa başladıqları dövrlərlə bağlı xatirələrini bölüşərək birgə keçdikləri sənət yolunu pillə-pillə xatırladı. Bu yolda onlarla birlikdə addımlayan kino xadimlərini çıxış üçün səhnəyə dəvət etdi.

davamı səh. 2-də

## Güldürən, düşündürən...

Ədiblərimiz haqlı olaraq qeyd edirlər ki, "Komiklik həmişə gülməlidir, amma gülüş həmişə komik deyildir". Bəli, gülüş estetik məzmun daşıyanda, ictimai şüura təsir edəndə, mühakimə vasitəsinə çevriləndə məntiqli olur. Güldürərək düşündürməksə yalnız peşəkarlara məxsusdur.

Azərbaycan teatr və kino sənətində şərəfli yer tutan, fitri istedadı ilə qəlbləri ovsunlayan, tamaşaçını düşünərək gülməyə, gülərək də düşünməyə vadar edən unudulmaz aktrisalarımızdan biri də Əməkdar artist Münəvvər Kələntərlidir. Onun uğurlu səhnə obrazları, koloritli ekran rolları məhz həyata sevgisindən, insanlara səmimiyyətindən, sənətə olan hörmətindən mayalanıb, ərsəyə gəlib. Bacarıq və istedadını bütünlükdə sənətə sərf edən görkəmli aktrisa müsbət fərdi keyfiyyətlərinə görə insanların sevgisini, istedadına, sənət duyumuna görə isə çoxsaylı tamaşaçı rəğbətini qazanıb. Ədəbi əsərlərin ideya və məzmununa uyğun olaraq yaratdığı xarakterlərin fonunda ekran əsərlərinə uğur qazandırıb, çəkildiyi filmlər Azərbaycan kinosunun "qızıl fond"una daxil olub.

davamı səh. 7-də

"Gələcəyin ulduzları" festivalının yekun konserti



səh. 3

Samsun Dövlət Opera və Balet Teatrında Fikrət Əmirovun "Nəsimi" baletinin premyerası olub

səh. 8



Cavid yadigarının mədəni irsimizə yadigarları

səh. 3

## 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında sərəncam imzalanıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, 1990-cı ilin 20 Yanvar hadisələrindən otuz il keçsə də, xalqımız indiyədək bu faciənin ağrı-acısı ilə yaşayır.

Bildirilir ki, 1987-ci ilin sonlarında yenidən ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Azərbaycan xalqının haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini hiddətlə ucaldaraq imperiya buxovlarından birdəfəlik qurtulmağa can atmasından təşvişə düşən SSRİ rəhbərliyi, 1990-cı ilin 20 yanvarında, əslində, sovet totalitar rejiminin süqutunu daha da sürətləndirən müdhiş cinayətə əl atdı.

Diqqətə çatdırılır ki, qətliamdan bir gün sonra, yanvarın 21-də xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Azərbaycan xalqının məruz qaldığı bu dəhşətli və amansız terroru dünyanın mütərəqqi qüvvələri də qətiyyətlə pislədi.

Bildirilir ki, Azərbaycanda vaxtında dərindən araşdırılmayan və adekvat qiymətini almayan faciəyə yalnız 1994-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Sərəncamda vurğulanır ki, 1990-cı ilin 20 yanvarında öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verən Azərbaycan xalqının iradəsi sınmadı və milli ruhu sarsılmadı. Azərbaycan bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların xatirəsini hər zaman uca tutur.

Sərəncama əsasən, Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda 20 Yanvar faciəsinin otuzuncu ildönümünə həsr olunmuş anma mərasimləri keçiriləcək. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına 20 Yanvar faciəsinin otuzuncu ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb həyata keçirilməsini təmin etmək tapşırılıb.

## Humanitar sahədə əlaqələr ölkələrimizin ümumi əməkdaşlığına müsbət təsir göstərir

Azərbaycanda Ukrayna mədəniyyətinə çox böyük hörmət var, Ukrayna dili tədris edilir. Bakı Slavyan Universitetində Ukrayna Mərkəzi vardır. Eyni zamanda, Ukraynanın ali məktəblərində Azərbaycan tarixinə, ədəbiyyatına kifayət qədər böyük yer ayrılır.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu sözləri dekabrın 17-də Ukrayna Prezidenti Vladimir Zelenski ilə danışıqlardan sonra mətbuata bəyanatında bildirib.

Prezident Vladimir Zelenski dekabrın 16-da axşam Bakıya rəsmi səfərə gəlib. Dekabrın 17-də Azərbaycan və Ukrayna dövlət başçılarının təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşləri keçirilib. Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev iki ölkənin siyasi əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayaraq ticarət dövriyyəsinin artırılması istiqamətində müzakirələr aparıldığını deyib. Bildirib ki, birgə sərmayə qoyuluşu layihələri də böyük maraq doğurur. Hər iki tərəfin sərmayə qoyuluşu ilə bağlı konkret təklifləri var. Digər önəmli məsələ turizmin inkişafıdır: "Həm Azərbaycanın, həm Ukraynanın çox böyük və zəngin turizm imkanları vardır. Bu sahədə də birgə əməkdaşlıq, təcrübə mübadiləsi, birgə layihələr müzakirə edildi, geniş fikir mübadiləsi aparıldı və konkret tapşırıqlar verildi".

Qeyd olunub ki, həm Ukraynada, həm Azərbaycanda nəqliyyat sahəsində müasir logistika və infrastruktur mövcuddur. Bu sahədə layihələr ölkələrimizi və geniş mənada regional əməkdaşlığı daha da möhkəmləndirəcək.

Dövlət başçısı danışıqlarda humanitar sahədə əməkdaşlığa da yer ayrıldığını vurğulayaraq bu sahədə əlaqələrin də ümumi əməkdaşlığa müsbət təsir göstərdiyini deyib.

Prezident Vladimir Zelenski iki ölkənin münasibətlərinin zamanın sınağından keçdiyini qeyd edərək bildirib ki, Azərbaycan Ukrayna üçün həmişə etibarlı dost və mühüm strateji tərəfdaş olub və bu gün də bu, belədir. O, iqtisadi sahədə əlaqələrin əhəmiyyətindən bəhs edərək deyib ki, 2018-ci ildən Ukraynada Azərbaycan Ticarət Evinin fəaliyyətə başlaması, bu səfər zamanı isə Azərbaycanda Ukrayna Ticarət Evinin açılması bu əlaqələrə təkan verəcək.

Ukrayna dövlət başçısı da iki ölkənin nəqliyyat potensialından qarşılıqlı səmərəli istifadə etməyin vacibliyini vurğulayıb. O, ölkələrimizin həm regional, həm də qlobal səviyyədə birgə mövqedən çıxış etdiyini deyərək Azərbaycana 2020-ci ildə GUAM-a uğurlu sədrlik arzu edib. "Bu səfər yeni başlayıb, amma artıq məndə belə bir əminlik var ki, bu, bizim əməkdaşlığımızın yeni səviyyəsinin göstəricisi olacaqdır. Əminəm ki, bu, bizim gələcək potensialımızın inkişafına xidmət edəcəkdir", – deyə Vladimir Zelenski fikrini tamamlayıb.

Dekabrın 17-də prezidentlərin iştirakı ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimi olub. Gəncə şəhəri və Odessa şəhəri arasında niyyət protokolu, Quba şəhəri ilə Truskavets şəhəri arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında müqavilə, həmçinin iki ölkənin müvafiq qurumları arasında biznesin aparılması şəraitinin tənzimlənməsi sahəsində əməkdaşlıq, Bakı-Kiyev dövlətlərarası hökumət rabitə xəttinin təşkil edilməsi haqqında sazişlər imzalanıb.

Həmçinin dövlət başçıları dekabrın 17-də Bakıda Azərbaycan-Ukrayna biznes forumunda iştirak ediblər.

***

Dekabrın 17-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Ukraynanın birinci xanımı Yelena Zelenskaya arasında da görüş keçirilib. Ukraynanın birinci xanımı Heydər Əliyev Mərkəzi ilə tanış olub.

## Qəhrəmanlarının obrazında yaşayan kinorejissor

*əvvəli səh. 1-də*

Xalq artisti, kinorejissor Xamis Muradov, sənədli filmlər rejissoru Tofiq Məmmədov çıxış edərək rejissorun özünəməxsus yaradıcılığından söz açıb, xatirələrini bölüşdülər. Vurğuladılar ki, ekranlaşdırdığı filmlərin hər birinin baş qəhrəmanı bütünlüklə Fikrət Əliyev xarakterinin təzahürü, rejissorun avtoportretidir. Bu səbəbdən də bu gün rejissor yaratdığı ekran əsərlərində yaşayır və heç vaxt unudulmayacaq.

Bildirildi ki, Fikrət Əliyev Arif Babayevdən sonra Abşeron koloritini ekrana gətirən rejissor kimi kino tariximizə düşüb. Onun özünəməxsus dəst-xətti, baxışı var idi. Rejissorluğa "Balababaşın ilk məhəbbəti" qısametrajlı filmi ilə başlayan sənətkar "Qızıl uçurum", "Yuxu", "Axırıncı dayanacaq", "Ölüm növbəsi" və digər filmlərə quruluş verib.



Kino karyerasına aktyor kimi başlayan Fikrət Əliyev "Dəli Kür" filmində Şamxal obrazını yaradıb. Hüseyn Mehdiyevlə birlikdə "Qoca palıdın nağılı" filminə quruluş verib. Sonralar bir neçə ekran əsərində rejissor assistenti, ikinci rejissor kimi işləyib, sənədli filmlər, "Mozalan" üçün süjetlər çəkib.

Düşüncələrini ekranlara köçürən, maraqlı və məzmunlu filmləri ilə tamaşaçıların sevgisini qazanan kinorejissor ekran əsərlərində həmişə müasirlərinin həyatından, onların cəmiyyətdəki rolundan, mühitə münasibətindən bəhs edib. Sənətkar kinoda rahatlıq tapıb, arzularını bu sahədə gerçəkləşdirməyə nail olub.

Çıxışlardan sonra kinorejissorun 80 illiyi münasibətilə ARB TV-nin "Aranfilm" Yaradıcılıq Mərkəzində ərsəyə gətirilən "Məni izləyən müəmma" sənədli filmi nümayiş etdirildi. Filmin ssenari müəllifi və rejissoru Babək Abbaszadə, bədii rəhbəri Tahir Əliyev çıxış edərək ekran işinin ərsəyə gəlməsində iştirak edən təşkilat və yaradıcı heyətə təşəkkür etdilər. Çəkilişlər Mərdəkan, Buzovna, Balaxanı və Bilgəhdə aparılıb. Filmin operatoru Anar Seyidov, icraçı prodüseri Qənirə Qurbanlı, prodüseri İqbal Məmmədəliyevdir. Baş rolu Xalq artisti Şamil Süleymanlı canlandırıb. Filmdə rejissorun lentə aldığı filmlərin əksər baş qəhrəmanları yer alıb. Kinolent bütünlüklə Fikrət Əliyevin çəkdiyi filmlərin kadrarxası məqamları üzərində qurulub.

Qeyd edək ki, Fikrət Əliyev 1939-cu il dekabrın 13-də Bakıda anadan olub. 1966-cı ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Aktyorluq fakültəsini, 1972-ci ildə Moskvada Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunun ikiillik ali ssenari və rejissorluq kurslarını bitirib. 1966-cı ildən "Azərbaycanfilm" kinostudiyasında işləyən rejissor 2016-cı il martın 8-də dünyasını dəyişib.

## Təsviri sənətdə təbiət və zəhmətin tərənnümçüsü

### "Onun əsərlərində insan zəhmətinin çətinliyini və qəhrəmanların daxili dünyalarının mənzərəsini görə bilirik"

*əvvəli səh. 1-də*

Tədbiri muzeyin direktoru, professor Çingiz Fərzəliyev açıq elan edərək rəssamın yaradıcılığından danışdı. Bildirdi ki, Nadir Qasımovun yaradıcılığı 1940-cı illərin sonundan 2000-ci ilə kimi - yarım əsrdən çox bir dövrü əhatə edir. Müxtəlif mövzu və janrlarda əsərlərin müəllifi olan rəssam ilk növbədə Abşeron və Xəzər dənizinin nəğməkarı və romantiki kimi yadda qalıb, adları incəsənətimizin "qızıl fond"una yazılmış tablolar yaradıb.





Bakıda yaşayıb-yaradan rəssam şəhərin gündəlik ritmini hiss edir, Abşeronun qeyri-adi iqlimində yüksək romantikanı duyur, qoca Xəzərin insan tərəfindən ram edilməsini görür və yaradıcılığında tərənnüm edirdi. Ç.Fərzəliyev mərhum sənətkarın bir pedaqoq kimi də özündən sonra istedadlı rəssamlar yetişdirdiyini vurğuladı.

Mərasimdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev sərginin əhəmiyyətini diqqətə çatdırdı. Bildirdi ki, rəssamın əsərlərinə diqqət edən zaman dövrün mənzərəsinin şahidi oluruq: "Hər bir rəssamın özünəməxsus baxışı və üslubu var. Nadir Qasımovun əsərlərində biz dövrün əmək insanlarının zəhmətinə verilən dəyər və hörmətin ifadəsini görürük. Onun əsərlərində insan zəhmətinin çətinliyini və qəhrəmanların daxili dünyalarının mənzərəsi əks olunub. Ulu öndər Heydər Əliyev əməkçilərlə görüşə gedən zaman həmişə sənət adamlarını, rəssamları, şairləri, bəstəkarları özü ilə aparardı. Bu siyasət insanların əməyinin yüksəldilməsi məqsədi daşıyırdı. Nadir Qasımovun əsərlərində biz bir daha bunun şahidi oluruq.

Nazir qeyd etdi ki, rəssamın yaradıcılığından danışarkən təbiət mənzərələrini də mütləq vurğulamalıyıq. O, təbiət mənzərələrini böyük ustalıqla yaradıb. Diqqət edəndə görürük ki, rəssam bu mənzərələrdə təbiətin sadəcə gözəlliyini deyil, onun sərt gözəlliyini – məsələn, dənizin dalğalarını, ləpələri, aşırımları rənglərə hopduraraq əsrarəngiz şəkildə ifadə edə bilib.

Əbülfəs Qarayev sərginin açılışında rəssamın ailəsinin, xanımının iştirak etdiyini deyərək bildirdi ki, Nadir Qasımovun irsinin qorunub saxlanılması və təbliğində onların rolu böyükdür. Vurğulandı ki, Nadir Qasımovun rəngkarlıq irsimizdə əbədiyaşar yaradıcılığından hələ uzun illər gələcək nəsillər bəhrələnəcək.

Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Nadir Qasımovu unudulmaz pedaqoq kimi yad edərək xatirələrini bölüşdü.

Rəssamın qızı Elmira Qasımova atasının sənətinə göstərilən diqqətə görə dövlətimizə və sərginin təşkilatçılarına minnətdarlığını bildirdi.

Sonra qonaqlar sərgi ilə tanış oldular.

Qeyd edək ki, rəssamın ən çox sevdiyi mövzu təkcə Xəzər deyildi. O, tez-tez Azərbaycan rayonlarının qonağı olur, təbiətdən sonsuz ilham alır, adi zəhmət adamlarını, qadın gözəlliyini tərənnüm edirdi. "Pambıq tarlasında", "Çəltik zəmilərində", "Lənkəran bazarında", "Rəfiqələr", "Lənkəran qızları" və başqa əsərlər bu qəbildəndir.

Keçən əsrin 50-ci illərində Nadir Qasımov Azərbaycanın tanınmış şəxsiyyətləri olan SSRİ xalq artistləri Bülbülün və Mərziyyə Davudovanın, neft ustası Gülbala Əliyevin portretlərini işləyib. Bu tablolarda sənətdə ilk addımlar atan, lakin öz fərdi yanaşma tərzi ilə səciyyələnən bir rəssamın üslubunu görürük.

Rəssamın 100-ə yaxın əsəri Rusiyanın müxtəlif muzey kolleksiyalarında, MDB ölkələrinin muzeylərində, ABŞ, Belçika, Fransa, Almaniya, Türkiyə, İspaniya və başqa ölkələrin muzeylərində, şəxsi kolleksiyalardadır.

**LALƏ**




## Elmi-praktik konfransda vokal ifaçılığının inkişaf yoluna nəzər salındı

Dekabrın 17-də Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Vokalçılar Festivalının açılışına həsr olunan elmi-praktik konfrans keçirildi.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının moderatorluğu ilə keçən konfransda ilk olaraq festivalın ideya müəllifi və bədii rəhbəri, Azərbaycan Televiziyası "Mədəniyyət" kanalının direktoru, Əməkdar artist Ramil Qasımov çıxış edərək konfrans iştirakçılarını salamladı.

Dekabrın 24-dək davam edəcək festivalın respublika miqyaslı bir layihə olduğunu deyən R.Qasımov musiqi bayramının Mədəniyyət Nazirliyinin dəstəyi ilə ilk dəfə keçirildiyini bildirdi. Qeyd etdi ki, festivalın əsas məqsədi Azərbaycan klassik musiqisinin inkişafı və təbliğ edilməsi, gənc nəsildə yüksək musiqi zövqünün formalaşdırılmasıdır: "Azərbaycan musiqi mədəniyyəti dərin köklərə bağlıdır, zəngin xəzinəsi əsrlərlə cilalanıb, bu günümüzə gəlib çıxıb. Azərbaycan klassik vokal sənəti də mədəniyyətimizin ayrılmaz hissəsidir. Təməli böyük ifaçımız, adını musiqi tariximizə yazan SSRİ Xalq artisti Bülbül tərəfindən qoyulan bu sənət bu gün də dünyada yaşadılır, inkişaf etdirilir. Bülbül Şərq və Qərb mədəniyyətini – klassik oxuma və milli vokal üslubunu sintez edərək unikal bir sənət nümunəsi yaradıb. Daha sonra Azərbaycanda vokal janrında səsləri heç zaman unudulmayan ifaçılar nəsli yetişdi. Biz belə zəngin mədəniyyətlə yalnız fəxr edə bilərik. Çünki bu gün yetişməkdə olan gənc nəsil həmin klassiklərin ifalarını dinləyərək öyrənir".

R.Qasımov festivalın milli vokal ifaçılığının inkişafına töhfə verəcəyini bildirdi. Dedi ki, musiqisevərlər festivalda həm yeni nəslin nümayəndələrini, həm də artıq bu sənətdə öz sözünü demiş peşəkar klassik vokalçıların ifalarını dinləmək imkanı qazanacaqlar. Belə bir təşəbbüsün yaranması dövlətimizin mədəniyyət sahəsinə göstərdiyi diqqət və qayğının nəticəsidir.

Xalq artistləri Xuraman Qasımova, Murad Hüseynov, Əməkdar incəsənət xadimi, Bakı Musiqi Akademiyasının prorektoru Gülnaz Abdullazadə çıxış edərək festivalın işinə uğurlar arzuladılar.

Sonra vokal sənəti ilə bağlı məruzələr dinlənildi. Xalq artisti, professor Xuraman Qasımova "Vokal musiqi tədrisinin metodikası", sənətşünaslıq üzrə elmlər doktoru Aytən Babayeva "Azərbaycan xor musiqisinin inkişafı kontekstində vokal janrlar", sənətşünaslıq üzrə fəlsəfə doktorları Nuridə İsmayılzadə "Azərbaycanda vokal məktəbləri", Nərgiz Hüseynova "Azərbaycan vokal ifaçılığının tədrisinə dair mənbələr", Jalə Qulamova "Azərbaycan vokal musiqisinin inkişaf yolları", Mehparə Rzayeva "Azərbaycan musiqi tarixində vokaliz janrının yaranma mənbələri" mövzularında çıxış etdilər.

Konfrans vokal məktəbinin tarixi, bu günü və gələcək inkişaf yollarına dair fikir mübadiləsi ilə davam etdi.

**L.AZƏRİ**

# İSESCO ölkələri mədəniyyət nazirlərinin konfransı

## "Naxçıvan – İslam mədəniyyətinin paytaxtı" ili çərçivəsində mədəni irsin təbliği ilə bağlı layihələrə görə ölkəmizə mükafat təqdim olunub

Dekabrın 17-də Tunis Respublikasının paytaxtı Tunisdə İSESCO-ya üzv ölkələrin Mədəniyyət Nazirlərinin 11-ci Konfransı keçirilib. Konfrans "Tunis-İslam mədəniyyətinin paytaxtı – 2019" ili çərçivəsində təşkil olunub.

Konfransa Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti qatılıb. Nümayəndə heyətinə nazirliyin Beynəlxalq təşkilatlarla əməkdaşlıq sektorunun müdiri Nuriyyə Məmmədova və İSESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının koordinatoru Ələkbər Xıdırov daxildir.

"İslam dünyasında mövcud mədəniyyət siyasətlərinin inkişafı uğrunda" devizi altında gerçəkləşən tədbirin gündəliyinə əvvəlki konfranslarda qəbul edilmiş qərarların icra vəziyyətinin müzakirəsi, İslam Dünyası İrs Komitəsinin hesabatının təqdimatı, rəqəmsal mədəniyyət haqqında sənəd layihəsinə, mədəniyyət layihələrinin maliyyələşdirilməsi mənbələri haqqında təkliflərə baxılması və s. məsələlər daxildir.

Konfransın açılışında Tunisin Mədəniyyət İşləri üzrə naziri Məhəmməd Zeyn əl-Abidin İSESCO ilə ölkəsinin əlaqələrindən, "Tunis-İslam mədəniyyətinin paytaxtı" ili ərzində görülmüş işlərdən danışıb.

İSESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik çıxışında təşkilatın həyata keçirdiyi proqramlardan bəhs edib. Baş direktor konfrans iştirakçılarını üzv ölkələrin tarixi abidələrini İslam irsi siyahısına daxil etmək üçün qeydiyyat məsələlərini tezləşdirməyə çağırıb. Qeyd edib ki, dünyada dağılmaq təhlükəsi ilə üzləşən tarixi və mədəniyyət məkanlarının təqribən 70 faizi İslam ölkələrinin ərazisində yerləşir.




Mərasimdə İSESCO-nun ənənəvi sənətkarlıq və əl işləri, ən yaxşı media işi, İslam mədəniyyəti paytaxtları üzrə ən yaxşı mədəniyyət layihəsi mükafatları təqdim edilib. Azərbaycan Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevə "Naxçıvan – İslam mədəniyyətinin paytaxtı – 2018" ili çərçivəsində mədəniyyətin təbliği və mədəni layihələrdə yaradıcılıq və innovasiyanın təşviqinə görə "Ən yaxşı mədəni layihə üzrə İSESCO Mükafatı" təqdim olunub.

Tədbirdə çıxış edən Vaqif Əliyev təşkilatçılara öz təşəkkürünü bildirib və konfransın mövzusuna uyğun olaraq İslam dünyasında mədəniyyət siyasətinin inkişafı üçün Azərbaycan tərəfindən həyata keçirilən tədbirlər və layihələr haqqında məlumat verib.

Konfrans çərçivəsində "Tunis-İslam mədəniyyətinin paytaxtı–2019" ilinin bağlanış tədbiri keçirilib.

Sonra ərəb dünyasından Qahirə (Misir), Asiya qrupundan Buxara (Özbəkistan) və Afrika qrupundan Bisau (Qvineya Bisau) şəhərləri 2020-ci il üçün İslam mədəniyyətinin paytaxtları elan edilib.

## Üç tarixi məkanımız İSESCO-nun siyahısına salınıb

Azərbaycanın üç tarixi-mədəni irs məkanı İSESCO-nun İslam irsi siyahısına daxil edilib.

Mərakeş Krallığının paytaxtı Rabatda keçirilmiş İslam Dünyası İrs Komitəsinin növbədənkənar iclasının yekun sənədinə əsasən, ölkəmizin İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri bu siyahıya salınıb.

Ümumiyyətlə, 117 tarixi və mədəniyyət obyekti İslam dünyası irs siyahısına, Yəməndə yerləşən 3 abidə isə İslam ölkələrində dağılmaq təhlükəsi olan abidələr siyahısına daxil edilib.

Qeyd edək ki, İSESCO-nun irs və mədəniyyətlə bağlı yeni strategiyası, həmçinin İslam dünyasında mədəni və tarixi irsin qeydə alınması və qorunması sahəsində fəaliyyətin gücləndirilməsini hədəfləyir.

# Rəqs sənətimizin su sonası xatırlandı

## Əminə Dilbazinin 100 illik yubileyi möhtəşəm proqramla qeyd edildi

*əvvəli səh. 1-də*

Sənətkarın uzunmüddətli fəaliyyəti ərzində daim yüksək səhnə mədəniyyəti nümayiş etdirib, fitri istedadı və bənzərsiz ifaçılıq imkanları sayəsində xalq rəqslərinin qiymətli nümunələrinə yeni çalarlar qazandırdığı vurğulandı. Əminə Dilbazinin qurduğu bir-birindən maraqlı rəqslər, yetişdirdiyi rəqqasələr, yaradıcısı olduğu "Çinar" rəqs kollektivi, ümumilikdə dünyanı dolaşan Azərbaycan rəqslərinə qatdığı yeni nəfəs, özünəməxsus çalarlar sadalandı.

Xalq artistinin bir çox filmlərdə rəqslərə quruluş verməsindən, Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində oynanılan "Dədə Qorqud", "Azərbaycan toyu", "Bir bağçanın gülləri" səhnə əsərlərində əsas partiyaların ifaçısı olmasından, dünya xalqlarının rəqsləri ilə milli xoreoqrafiya elementlərimizi ustalıqla sintez etməsindən söz açıldı. Rəqqasənin ifa etdiyi "İnnabı", "Tərəkəmə", "Mirzeyi", "Turacı", "Naz eləmə" rəqslərində tamaşaçılara rəqs nümunəsindən başqa, sanki bir səhnə əsəri, musiqi, balet nümunəsi təqdim etmək gücündən danışıldı. Səhnəmizin zərif "Turacı"nın bənzərsiz ifaçısının milli rəqsləri bütün xarakterik xüsusiyyətləri ilə tamaşaçıya nümayiş etdirdiyi diqqətə çatdırıldı. Repertuarına rus, Ukrayna, özbək, ərəb, ləzgi və digər xalqların rəqs nümunələrini də ustalıqla daxil edən rəqqasənin hər ifasında özünəməxsus izini qoyduğu bir daha vurğulandı.

Yubiley gecəsi sənətkarın fəaliyyət göstərdiyi kollektivlərin ifalarında rəngarəng rəqs nümunələri ilə yadda qaldı.



Azərbaycan Dövlət Rəqs Ansamblı, F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası, həmçinin Bakı Xoreoqrafiya Akademiyası tələbələrinin ifaları səhnədə nəsildən-nəslə ötürülən rəqs ənənəsi, insanın emosiyalarının, əsrarəngiz hisslərinin musiqi ilə həmahənglik fonunda hərəkətə çevrilməsinin izahını verdi.

Qonaq kollektivlər – Suxişvili adına Gürcüstan Milli Baleti, "Ləzginka" Dağıstan Dövlət Akademik Rəqs Ansamblı, "Alan" Dövlət Akademik Rəqs Ansamblının (Şimali Osetiya-Alanya) yüksək ritmli rəqs nömrələri gecəyə xüsusi rəng qatdı.

Yüksək peşəkarlıq və zövqlə tərtib olunmuş konsert proqramında "Mənim Azərbaycanım" süitasının sədaları altında Azərbaycan Dövlət Rəqs Ansamblının, "İlauri"dən 4-cü rəqs ilə Suxişvili adına Gürcüstan Milli Baletinin təqdimatı alqışlarla qarşılandı.

İllərlə bizi ecazkar rəqslərində heyrətləndirən, unudulmaz sənət inciləri yaradan Əminə xanımın əbədiyaşarlıq verdiyi "Turacı"sını bu dəfə Dövlət Mahnı və Rəqs Ansamblının solisti, Əməkdar artist Nigar Şahmuradova pərvazlandırdı.

Cahangir Cahangirovun bənzərsiz musiqisini yazdığı "Bulaq başında" F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında (rəqsin quruluşçusu Xalq artisti Əlibaba Abdullayevdir) alqışlara qarşılandı.

"Zəriflik" rəqsi isə "Ləzginka" Dağıstan Dövlət Akademik Rəqs Ansamblının ifasında (bədii rəhbər Rusiya və Azərbaycanın Əməkdar incəsənət xadimi Cambulat Maqomedov) xüsusi bir ecazkarlıqla təqdim olundu.

Qara Qarayevin "Yeddi gözəl" baletindən vals, "Mirzeyi" rəqsi, "Bahar rəqsi", "Ləli", "Osetiya", "Gənclik" rəqsləri bir-birinin ardınca sıralandıqca, fərqli rəqs kollektivləri, rəqs ənənə və məktəblərinin bənzərsizliyi bir-birini əvəz etdikcə insan bədəninin musiqi ilə ən füsunkar harmoniyası yarandı.

Konsertin sonundakı "Vətən süitası", "Nağaralarla rəqs" gecəyə ayrıca bir ovqat qatdı, desək yanılmarıq. Sürəkli alqışların müşayiəti ilə əzmkarlıq, ruh yüksəkliyi aşılayan "Naxçıvan yallısı" zalı coşdurmağı bacardı.

**HƏMİDƏ**

## "İrs" layihəsindən yeni kitabların təqdimatı

Dekabrın 16-da "JW Marriott Absheron" hotelində "Azərbaycan inciləri", "Gəncə – Nizami yurdu" və "Qədim və gözəl Qarabağ" adlı kitabların təqdimatı keçirilib.



Yeni nəşrlər Azərbaycan mədəni irsinin, adət-ənənələrinin, çoxsaylı abidələrin beynəlxalq miqyasda tanıdılması və təbliği məqsədilə Mədəniyyət Nazirliyi, "Paşa Həyat Sığorta" ASC və "IRS Publishing House"un 2013-cü ildən birgə həyata keçirdiyi "İrs" silsiləsi layihəsi çərçivəsində ərsəyə gəlib.

Tədbirdə Mədəniyyət naziri Əbülfəs Qarayev, "Paşa Həyat Sığorta" ASC-nin İdarə Heyətinin sədri Niyaz İsmayılov, layihə rəhbəri, Əməkdar jurnalist Musa Mərcanlı, "Gəncə – Nizami yurdu" kitabının elmi redaktoru, professor Əli Həsənov, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısı Bayram Səfərov və başqaları çıxış edərək tədbirin əhəmiyyətindən söz açıb, layihənin önəmini vurğulayıblar.

Bildirilib ki, təqdim olunan kitablar hər bir azərbaycanlının ürəyində yaşatdığı tarixi əks etdirir. Son illər Azərbaycan mədəniyyətinin inkişafından söz açan natiqlər qeyd ediblər ki, bu inkişafın təməlində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın apardığı siyasət dayanır.

Vurğulanıb ki, "Azərbaycan inciləri" kitabı Heydər Əliyev Fondunun, şəxsən Mehriban xanım Əliyevanın dəstəyi ilə xüsusi olaraq UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası üçün fransız və ingilis dillərində hazırlanıb.

Qarabağ mövzusunda layihə çərçivəsində işıq üzü görən "Qədim və gözəl Qarabağ" kitabı 2016-cı ildə nəşr edilmiş "Qarabağ – əsrlərin salnaməsi"nə ictimaiyyətin xüsusi marağı nəzərə alınaraq çap edilib. Azərbaycanın ikinci böyük şəhəri, tarixi və mədəni irsi zəngin, bir çox dahilərin vətəni olan Gəncə haqqında isə "Gəncə – Nizami yurdu" adlı kitab hazırlanaraq oxucuların ixtiyarına verilib.

Qeyd edək ki, "İrs" layihəsi çərçivəsində indiyədək "Qədim qalanın yuxuları", "Qobustan – minilliklər kitabı", "Təbrizin sehrli nağılları", "Naxçıvan – Şərqin əfsanəsi", "Məftun edən şəhər", "Bakı simfoniyası", "Daş keşikçilər", "Qarabağ – əsrlərin salnaməsi" adlı kitablar işıq üzü görüb.

## "Gələcəyin ulduzları" festivalının yekun konserti

Dekabrın 14-də Beynəlxalq Muğam Mərkəzində "Future Stars 2019" XII Beynəlxalq Klassik Musiqi Festivalının yekun konserti keçirilib.

Festival Bülbül adına Orta İxtisas Musiqi Məktəbi və Gürcüstan İncəsənət Xadimləri Birliyinin birgə təşkilatçılığı ilə reallaşıb.



Tədbirdə Xalq artisti, Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin direktoru Teymur Göyçayev və təşkilatçı Nino Kupatadze çıxış edərək sənət yarışmasının artıq 4-cü dəfə Bakıda keçirilməsindən məmnunluqlarını ifadə ediblər və festival nəticəsində hər il neçə-neçə istedadın üzə çıxdığını vurğulayıblar. Bildirilib ki, "Gələcəyin ulduzları" layihəsində uğur qazanan şagirdlər ölkələrini müxtəlif klassik musiqi festivallarında da layiqincə təmsil edirlər.

Diqqətə çatdırılıb ki, festival günlərində Gürcüstan konservatoriyasının professoru, Xalq artisti Nino Kutatadze (fortepiano), ifaçılar Anar Məmmədov (klarnet), Anar Yusifov (violin) və Elena Cancaliya (vokal) tərəfindən ustad dərsləri keçirilib.

Daha sonra tədbir qaliblərin mükafatlandırılması və konsert proqramı ilə davam edib.

# Cavid yadigarının mədəni irsimizə yadigarları



Bəstəkarlar İttifaqında 12 cilddən ibarət "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" kitabının və "Sözləri Hüseyn Cavidindir" adlı Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət not məcmuəsinin təqdimatı keçirildi. Azərbaycan Bəstəkarlar İttifaqı və Hüseyn Cavidin ev-muzeyinin birgə təşkilatçılığı ilə reallaşan tədbir Ərtoğrol Cavidin anadan olmasının 100 illiyinə həsr olunmuşdu.

Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə tədbiri açaraq Ərtoğrol Cavidin ömür yolundan danışdı. Diqqətə çatdırdı ki, Ərtoğrol Cavid qısa ömür yaşamasına baxmayaraq, çoxşaxəli fəaliyyəti ilə tanınıb və sevilib. Ötən əsrin 30-cu illərinin ictimai-siyasi mühiti, Cavidlər ailəsinin başına gətirilən məşəqqət və məhrumiyyətlər bu qısa ömrü bir az da gərginləşdirir. Buna baxmayaraq Ərtoğrol təhsil alır, yazıb-yaradır. O, heç zaman atasının – böyük dramaturq və mütəfəkkir Hüseyn Cavidin şöhrəti arxasından boy verməyib, öz istedadı sayəsində hörmət və rəğbət qazanıb.

Ərtoğrol Cavid 1941-ci ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirib, sonra musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəylinin sinfində davam etdirib. O, eyni zamanda konservatoriyanın nəzdindəki musiqi məktəbində dərs deyib. Həmçinin gənc tədqiqatçı kimi musiqi folkloru nümunələrinin toplanması və tədqiqində iştirak edib. Azərbaycanın ayrı-ayrı regionlarından toplanmış müxtəlif janrlı folklor nümunələri, eləcə də şifahi xalq ədəbiyyatına dair bəzi tədqiqat əsərləri barədə dəyərli elmi rəylər yazıb.

AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli qeyd etdi ki, Ərtoğrol Cavid XX əsrin əvvəllərində zəngin folklor nümunələrinin toplanmasında, sistemləşdirilməsində və tədqiqində diqqətçəkən xidmətlər göstərib. Onun milli musiqi mədəniyyətimizin yeni yaradıcılıq nümunələri ilə zənginləşdirilməsində də əməyi olub. O, "9 variasiya", skripka ilə fortepiano üçün "Poema", "Leylanın vəsfi" kimi romanslar, müharibə mövzusunda simfonik ballada və marşlar yaradıb. Ərtoğrol Cavid rəssamlığın da müxtəlif janrlarına müraciət edib.

AMEA Hüseyn Cavidin ev-muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Gülbəniz Babaxanlı Ərtoğrol Cavidin həyat yolundan, yaradıcılıq fəaliyyətindən bəhs etdi. Bildirdi ki, Ə.Cavid qısa ömründə musiqişünas, rəssam və tədqiqatçı kimi zəngin irs yaradıb. Hüseyn Cavidin ev-muzeyində onun şəxsi arxivi qorunub saxlanılır. Həmin arxivdə bu il ədibin 100 illik yubileyi münasibətilə muzeyin əməkdaşları tədqiqatlarını davam etdiriblər. Nəticədə "Ərtoğrol Cavidin musiqi əsərləri", "Ərtoğrol Cavidin məqalələr toplusu" adlı yeni nəşrlər ərsəyə gəlib. Yubileydən əvvəlki illərdə də muzey tərəfindən "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" çoxcildliyi, "Balaman məktəbi" dərsliyi və Ərtoğrol Cavid", "Ərtoğrol Cavidin nota köçürdüyü xalq mahnıları" və "Ərtoğrol Cavidin yarımçıq qalmış əsərləri" adlı nəşrlər ərsəyə gətirilib.

Tədbirdə daha sonra bəstəkar, Xalq artisti, professor Tofiq Bakıxanov, Azərbaycan Bəstəkarlar İttifaqının məsul katibi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənova və başqaları çıxış edərək Ərtoğrol Cavid yaradıcılığından söhbət açdılar. Qeyd olundu ki, Ərtoğrol Cavidin vaxtsız ölümü ilə Azərbaycan təkcə böyük Hüseyn Cavid yadigarını deyil, şair, nasir, dramaturq, folklorçu, musiqişünas, bəstəkar, rəssam və tərcüməçini itirib.

Çıxışlardan sonra musiqi nömrələri təqdim edildi. Beynəlxalq müsabiqə laureatı Fəqan Həsənli Ərtoğrol Cavidin piano üçün variasiyalarını, piano üçün prelüdlərini ("Çal-oyna", "Aşıqsayağı") ifa etdi. Elnarə Dadaşovanın Hüseyn Cavidin sözlərinə bəstələdiyi "Mənim tanrım" mahnısı Xalq artisti Elmira Rəhimovanın ifasında, Nazim Quliyevin Hüseyn Cavidin sözlərinə yazdığı "Ellər, ay ellər" əsəri isə Azərbaycan Televiziyası və Radiosu Niyazi adına simfonik orkestrin ifasında audiolent yazısında səsləndirildi.

**Savalan FƏRƏCOV**

# Qətərin Milli Günü qeyd olunub

Qətərin Milli Günü münasibətilə dekabrın 16-da bu ölkənin Bakıdakı səfirliyi tərəfindən rəsmi qəbul təşkil edilib. Mərasim Azərbaycan Respublikası və Qətər Dövlətinin himnlərinin səslendirilməsi ilə başlanıb.

Qətərin Azərbaycandakı səfiri Feysal bin Abdullah Həməd Abdullah Əl Hənzab çıxış edərək iki ölkə arasında əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini vurğulayıb. Diplomat ölkəsinin bərabərhüquqlu qarşılıqlı əməkdaşlıq prinsipinə söykənən beynəlxalq münasibətlərindən də söz açıb.

Azərbaycan və Qətər hökumətləri arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın həmsədri, Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov Milli Gün münasibətilə Qətər xalqını Azərbaycan Prezidenti adından təbrik edib, dost ölkəyə əmin-amanlıq, yüksək rifah və davamlı tərəqqi arzulayıb. Vurğulanıb ki, ölkələrimiz arasında diplomatik əlaqələr 1994-cü ildə qurulub və ötən dövrdə mühüm inkişaf yolu keçib, dövlət başçılarının yüksək səviyyəli qarşılıqlı səfərlər sayəsində daha da möhkəmlənib. Bu səfərlər zamanı əldə edilmiş razılaşmalar və iqtisadiyyat, mədəniyyət, turizm və digər sahələrdə imzalanan sənədlər ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün güclü zəmin yaradıb.

# Nəsiminin məqbərəsindən fotolar

*əvvəli səh. 1-də*




Fotoqraf, böyük çətinliklərlə də olsa, Nəsiminin məqbərəsini ziyarət edərək abidənin fotolarını çəkib.

Orxan Əzim bildirir ki, üç metr hündürlükdə hasarla əhatələnən məqbərənin yerləşdiyi küçədə divara üzərində ərəb dilində "Həzrət Nəsimi təkkəsi" yazılmış lövhə vurulub və həmin küçə Nəsiminin adını (Əl-Nəsimi) daşıyır. Fotoqrafın sözlərinə görə, məqbərə və onu əhatə edən divarlarda müharibədən öncə başlanmış təmir işləri yarımçıq qalıb: "Abidənin yaxınlığındakı dağıntılar müharibənin dəhşətlərini gözlər önünə sərir. Məqbərənin yerləşdiyi ərazidə şairin nəslinin nümayəndələrinin və ideya davamçılarının da məzarları var. Məqbərədə və ətrafdakı məzarlarda çatlar var ki, bu da yaxın ərazilərə düşən mərmilərin fəsadlarıdır".

Fotoqraf səfər müddətində Yaxın Şərqin qədim mədəniyyət mərkəzlərindən biri kimi tanınan, son illərdə isə müharibə zamanı tarmar olmuş Hələb şəhərinin görüntülərini də çəkib. Şəhərin yeddi giriş qapısından 5-i salamat qalıb, 13 kilometr uzunluğunda tarixi Hələb bazarı tamamilə dağıdılıb. 1986-cı ildən UNESCO-nun Dünya irs siyahısında yer alan Hələb qalası da ciddi zərər görüb. Muzeylər, kitabxanalar talan edilib. Hərbi əməliyyatlar dayandırılandan sonra bəzi ərazilərdə bərpa işləri başlanıb, mehmanxanalar, bazarlar istifadəyə verilib. Böyük məhrumiyyətlər görən, müharibənin od-alovundan keçən insanlar gələcəyə ümidlidir.

Orxan Əzimin dumanlı, çiskinli, bəzən də günəşli olan Hələbdən hazırladığı fotoreportaj İmadəddin Nəsiminin qəriblikdə sərgərdan olan ruhuna ehtiram, böyük şairin məqbərəsinin taleyindən nigaran olan insanlar üçün bir təsəllidir.

Qeyd edək ki, "Mədəniyyət" qəzetinin fotomüxbirinin Hələb şəhərinə səfəri zamanı "Nəsimi ili"nə töhfə olaraq ərsəyə gətirdiyi fotoşəkillərin Mədəniyyət Nazirliyi tərəfindən yaxın günlərdə sərgisi təşkil ediləcək.

# Regionlarda ustad dərsləri

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin (MEMİM) təşkilatçılığı və Bərdə Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə Yevlax şəhərində təşkil olunmuş "Respublikada yerləşən xalq teatrları və dram dərnəklərində aktyorların səhnə yaradıcılığında mühüm sayılan yaddaş və diqqət məşğələlərinin təşkili" adlı ustad dərsləri başa çatıb.

Dərslərdə Bərdə, Tərtər rayonlarında, Yevlax və Mingəçevir şəhərlərində mədəniyyət mərkəzlərində (filialları ilə birlikdə), klublarda fəaliyyət göstərən xalq teatrları və dram dərnəklərinin rəhbərləri, rejissorları və aktyorları iştirak ediblər.

Dərsləri aparan mərkəzin əməkdaşı, Əməkdar mədəniyyət işçisi Hikmət Nəbili qeyd edib ki, xalq teatrları bölgələrdəki mədəni həyatı canlı saxlayır, məşhur aktyorların yetişməsi üçün vacib rol oynayır. Ona görə də xalq teatrlarında yeni formatlı, eksperimental tamaşalar qurulmalı, istedadlı rejissorlardan istifadə edilməlidir.

Bərdə Regional Mədəniyyət İdarəsinin nümayəndələri çıxış edərək qeyd ediblər ki, yüksək texnologiyalar dövründə ənənəvi teatrı müasir üsullar, müasir yanaşma yaşada bilər. Xalq teatrlarının və dram dərnəklərinin işində də yeni formatlar axtarıb tapılmalıdır. Dərs çərçivəsində interaktiv tamaşa nümayiş olunub.

# "Sumqayıt uşaqların gözü ilə"

Sumqayıtın Tarixi Muzeyində "Sumqayıt uşaqların gözü ilə" adlı rəsm sərgi-müsabiqəsi təşkil edilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə gerçəkləşən sərgidə Ə.Bakıxanov adına Uşaq incəsənət məktəbinin rəsm şöbəsi şagirdlərinin Sumqayıtın 70 illik yubileyinə həsr olunmuş əl işləri təqdim olunub.

Əvvəlcə muzeyin elmi işçilərinin mövzu ilə əlaqədar çıxışları dinlənilib. Sonra müsabiqənin nəticələrinə görə I, II və III yerin qalibləri, o cümlədən həvəsləndirici yerlərin sahibləri fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar.

# ATMU əməkdaşları elmi konfranslarda

Rusiya Federasiyasının Yoşkar-Ola şəhərindəki Povoljsk Dövlət Texnologiya Universitetində "İnsan və cəmiyyət qlobal transformasiyalar çağırışı qarşısında" mövzusunda elmi konfrans keçirilib. Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) Turizm və qonaqpərvərlik fakültəsinin dekan müavini Emin Quliyev tədbirdə "Azərbaycan-Rusiya münasibətlərinin bu ölkələrin sosial-iqtisadi inkişafına təsiri" mövzusunda məruzə ilə çıxış edib.

ATMU əməkdaşları Elmira Qocayeva, Sabir Quluzadə və Sənubər Qənbərova isə Rumıniyanın paytaxtı Buxarestdə "Artifeks" Universitetinin təşkilatçılığı ilə keçirilən "Bilik cəmiyyətində innovativ iqtisadi-sosial yanaşmalar" adlı beynəlxalq konfransa qatılıblar.

Elmira Qocayeva "Turizm sahələrində rəqabətqabiliyyətli indeksə əsaslanan tədqiqatların aparılması" Sabir Quluzadə "Milli valyutanın devalvasiyasının Azərbaycanın istehsal sənayesinə müsbət təsiri", Sənubər Qənbərova "Turizm XXI əsrdə sosial-iqtisadi fenomen kimi" mövzularında məruzələrini təqdim ediblər.

# Bölgələrdə vətəndaşların növbəti qəbulu keçirilib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, dekabrın 17-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Saatlı rayonunda, Mədəniyyət nazirinin müavini Rafiq Bayramov Hacıqabul rayonunda vətəndaşlarla görüşüb.





Qəbullardan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə tər çiçək dəstələri düzülüb.

Nazir Əbülfəs Qarayev Saatlı rayon Mədəniyyət Mərkəzində Saatlı və Sabirabad rayonlarından olan vətəndaşları qəbul edib. Görüşdə sakinlər tərəfindən region muzeylərində qorunan qiymətli eksponatlar haqqında nəşrlərin hazırlanması, Bakı şəhərində fəaliyyət göstərən teatrlarda istifadə olunmayan geyimlərin bölgələrdəki mədəniyyət mərkəzlərinə verilməsi, "Adıgün" folklor kollektivinin (Saatlı rayonu) 50 illiyi münasibətilə mükafatlandırılması, kitabxanaların uşaq ədəbiyyatı, musiqi məktəbinin musiqi alətləri ilə təchizatına dair müraciətlər səslənib.

Qəbulda həmçinin Sabirabad Dövlət Sosial-İqtisadi Kollecində mədəniyyət sahəsi üzrə ixtisasların açılması, "Kitab karvanı" layihəsinin regionlarda mütəmadi olaraq keçirilməsi, Saatlı Dövlət Rəsm Qalereyasının fondunun zənginləşdirilməsi, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər edilib.

sədilə kurslara ezam olunması, kitabxana fondlarının uşaq ədəbiyyatı ilə komplektləşdirilməsi, uşaq musiqi məktəblərinə musiqi alətlərinin verilməsi və digər məsələlərlə bağlı olub.

Mədəniyyət Nazirliyinin aidiyyəti struktur bölmələri nümayəndələrinin də iştirak etdiyi görüşlərdə bütün müraciətlər dinlənilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həllini tapıb. Bəzi müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həll olunması məqsədilə müvafiq tapşırıqlar verilib.

Nazir müavini Rafiq Bayramovun Hacıqabuldakı Heydər Əliyev Mərkəzində keçirdiyi qəbulda rayon sakinlərinin müraciətləri uşaq musiqi məktəblərində ustad dərslərinin təşkili, gənc mədəniyyət işçilərinin rəsm, milli rəqs, teatr sahələri üzrə bacarıqlarının üzə çıxarılması məq-

# Şəkidə Memarlar İttifaqının qış plenumu

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin qış plenumu dekabrın 14-də Şəki şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilib.

Tədbir çərçivəsində Azərbaycan memarlarının yaradıcılığını əks etdirən sərgi açılıb.

Azərbaycan Memarlar İttifaqının İdarə heyətinin sədri Elbay Qasımzadə hesabat dövründə görülən işlər haqqında məlumat verib.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov tədbir iştirakçılarını salamlayaraq plenumun Şəkidə keçirilməsinin təsadüfi olmadığını bildirib. Qeyd edib ki, tarixi və milli memarlıq abidələri ilə zəngin olan Şəki 2016-cı ildə TÜRKSOY tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib, 2017-ci ildə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə ("sənətkarlıq və xalq yaradıcılığı" mövzusu üzrə) daxil edilib. 2019-cu ilin iyulunda isə Dünya İrs Komitəsinin Bakıda keçirilən sessiyasında Şəkinin tarixi mərkəzi Xan sarayı ilə birlikdə UNESCO-nun Dünya irs siyahısına salınıb.

Vurğulanıb ki, Şəkinin turizm və mədəniyyət mərkəzi kimi yenidən qurulması ilə əlaqədar Prezident İlham Əliyevin verdiyi tapşırıqların və müvafiq sərəncamların icrası nəticəsində şəhər qədimliyini qoruyub saxlamaqla bərabər müasirləşir, regionun turizm potensialı daha da artır.



Tədbirdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov çıxış edərək ölkəmizdə tarix-mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində həyata keçirilən işlərdən danışıb. Qeyd olunub ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Şərq memarlığının nadir incilərindən hesab olunan Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Dünya irs siyahısına daxil edilməsi ölkəmizin mədəni həyatında böyük hadisədir.

Plenumda Azərbaycan Memarlar İttifaqı Təftiş Komissiyasının hesabatı dinlənilib, plenumun qətnaməsi qəbul edilib. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov ittifaqın fəxri üzvü seçilib. Şəhərsalma və memarlıq sahəsində fərqlənənlərə qurumun fəxri fərmanları təqdim olunub.

# Prezident Kuboku uğrunda çövkən yarışı Bakıda davam edəcək

*əvvəli səh. 1-də*

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı, Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən yarışlara Şəki, Ağcabədi, Ağstafa və İsmayıllı Regional Mədəniyyət idarələrini təmsil edən komandalar, həmçinin Bakı şəhərinin "Buta", "Qala", "Qarabağ", "Köhlən", "Murad", "Omar", "Polad" və "Sərhədçi" komandaları qatılıb.





Dekabrın 14-də Prezident Kuboku uğrunda çövkən oyunu üzrə yarışların rəsmi açılış mərasimi olub. Mərasimdə bildirilib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqımızın yenidən sahib olduğu milli dəyərlər sırasında atüstü milli oyunlar ön cərgələrdə yer tutur. Son illər ölkəmizdə qədim tarixə malik atüstü milli oyunlarımızın qorunub saxlanılmasına xüsusi diqqət göstərilir. Prezident İlham Əliyevin fərmanı ilə 2006-cı ildə Şəki rayonunda Respublika Atçılıq Turizm Mərkəzinin (hazırda Respublika Milli Atüstü Oyunları Mərkəzi) yaradılmasında əsas məqsəd milli atüstü oyunlara yeni həyat vermək, ölkəmizdə atçılıq turizmini təbliğ etmək, gənc nəsildə bu sahəyə maraq oyatmaqdır.

Vurğulanıb ki, UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2013-cü ilin dekabrında Bakıda keçirilən 8-ci sessiyasında Azərbaycanın çövkən oyununun təşkilatın siyahısına salınması ölkəmizdə mədəni irsin qorunması sahəsində həyata keçirilən tədbirlərin, aparılan məqsədyönlü işin məntiqi nəticəsidir.

Musiqi kollektivinin çıxışından sonra komandalar "Cəngi" sədaları altında tribunanın önündən keçərək meydana daxil olublar.

Sonra tamaşaçılar "Şəki" və "Qarabağ" komandaları arasında oyunu izləyiblər. Oyun Şəki təmsilçisinin qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, ümumilikdə 12 komandanın qatıldığı yarışın qrup mərhələsinin oyunları 13-15 dekabrda keçirilib. Dörd qrupun hər birində ilk iki yeri tutan komandalar dörddəbir finalda iştirak etmək hüququ qazanıblar.

Bu mərhələ paytaxt təmsilçilərinin tam üstünlüyü ilə keçib.

"Omar" (Bakı) – "İsmayıllı" (6:1).
"Polad" (Bakı) – "Şəki" (5:0).
"Buta" (Bakı) – "Ağcabədi" (3:0).
"Sərhədçi" (Bakı) – "Ağstafa" (3:0).

Beləliklə, "Sərhədçi", "Buta", "Polad" və "Omar" komandaları yarımfinala vəsiqə qazanıblar. Yarımfinal və final oyunları dekabrın 22 və 24-də Bakı şəhərində yerləşən Binə Atçılıq Mərkəzinin qapalı manejində keçiriləcək. Oyunun qaliblərinə Mədəniyyət Nazirliyinin diplomu və pul mükafatları təqdim ediləcək.

Yarışların baş hakimi respublika dərəcəli hakim, Respublika Milli Atüstü Oyunları Mərkəzinin direktoru Rafiq Ramazanov olub.

# "Lənkəran payızı" – ənənəvi folklor festivalı

Lənkəran Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə dekabrın 15-də Q.Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzində VII "Lənkəran payızı" folklor festivalı keçirilib. Tədbir çərçivəsində həmçinin IV "Bizim Qala" diyarşünaslıq, VII "Dəmirağacı" sənətkarlıq sərgiləri təşkil edilib. Qonaqlar əvvəlcə sərgilərlə tanış olublar.

Mədəniyyət mərkəzinin direktoru Hafiz Mirzə ənənəvi olaraq keçirilən sənətkarlıq, diyarşünaslıq sərgiləri və "Lənkəran payızı" folklor festivalı barədə məlumat verib, folklor ənənələrinin qorunub saxlanılması istiqamətində görülən işlərdən danışıb.

Sonra Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Nəsirli çıxış edərək xalqın zəngin folklor ənənələrinin yaşadılması sahəsində belə tədbirlərin xüsusi əhəmiyyətli olduğunu vurğulayıb, tədbirin təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Folklorşünas alim, filologiya elmləri doktoru Yədulla Ağazadə milli adət-ənənələrin qorunub saxlanılmasının gələcək nəsillər üçün nümunə olduğunu bildirib.

Mərkəzin mədəniyyət evi və klub filiallarında çalışan mədəniyyət işçiləri tərəfindən xalq mahnıları, folklor nümunələri səsləndirilib, milli rəqslər, xalq oyunları ifa olunub. Sərgi və festivalda fərqlənən iştirakçılar diplomlara layiq görülüblər.

# Həştərxan vilayəti ilə mədəniyyət sahəsində əlaqələr müzakirə olunub

Mədəniyyət nazirinin müavini Rafiq Bayramov Bakıda səfərdə olan Rusiya Federasiyası Həştərxan vilayətinin Mədəniyyət və Turizm naziri Olqa Prokofyeva ilə görüşüb.



Nazir müavini qonağı salamlayaraq iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin uğurla inkişaf etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Rusiyada gerçəkləşən müxtəlif mədəni layihələrdə yaxından iştirak edir. Son illər bu sahədə əməkdaşlığa töhfə verən bir sıra tədbirlər keçirilib.

Respublikamızın Rusiya Federasiyasının regionları ilə münasibətlərinin mədəni əməkdaşlıqda da əhəmiyyət kəsb etdiyini deyən Rafiq Bayramov bildirib ki, biz bu istiqamətdə regional təşkilat və müəssisələrlə daha sıx əlaqələrin qurulmasında və təcrübə mübadiləsində maraqlıyıq. Qeyd olunub ki, bu gün dünyada idarəetmə üzrə müasir metodlar tətbiq edilir: “Mədəniyyət sahəsində müasir idarəetmə və metodologiyalara keçid dövründə bu xüsusda təcrübə mübadiləsi vacibdir. Bu sahədə layihələri inkişaf etdirib təcrübələrimizi bölüşməliyik”. Söhbət zamanı həmçinin teatr sahəsində qarşılıqlı əməkdaşlığın perspektivlərindən bəhs edilib.

Həştərxan vilayətinin Mədəniyyət və Turizm naziri Olqa Prokofyeva vurğulayıb ki, Azərbaycanla müxtəlif sahələrdə bir neçə layihənin gerçəkləşməsinə nail olmaq arzusundadırlar: “Bu layihələrdən biri Həştərxanda keçirilən teatr festivalıdır və həmin festivalda Azərbaycanın iştirakından məmnun olardıq”.

Daha sonra görüşdə mədəniyyət sahəsində qarşılıqlı təcrübə mübadiləsi, o cümlədən tələbə mübadiləsi kimi mövzular müzakirə edilib.

Rafiq Bayramov Azərbaycanda keçirilən beynəlxalq musiqi festivalları, habelə xalq yaradıcılığı ənənələrinin yaşadılması və təbliğinə xidmət edən layihələr haqqında məlumat verib. Bildirib ki, müştərək layihələrin dəstəklənməsi və qarşılıqlı əlaqələrin inkişafı üçün birgə fəaliyyət xalqlarımızın bir-birinin mədəni irsini daha yaxından tanımasına öz töhfəsini verəcək.

Görüş qarşılıqlı əməkdaşlığın perspektivləri mövzusunda müzakirələrlə davam edib.

# İki mükafat Gəncəyə getdi

## Nəsiminin 650 illiyinə həsr edilmiş intellektual turnir başa çatdı

Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi tərəfindən İmadəddin Nəsiminin 650 illiyi münasibətilə gənc mədəniyyət işçiləri arasında keçirilən intellektual turnirə yekun vuruldu. Turnirin final mərhələsi dekabrın 13-də YARAT Müasir İncəsənət Məkanında təşkil edildi.



Oktyabr-noyabr aylarında Şamaxı, Lənkəran və Gəncə şəhərlərində keçirilmiş bölgə mərhələlərində ən çox xal toplamış yeddi komanda öz biliklərini, analitik və iti düşünmə qabiliyyətlərini nümayiş etdirdilər. “Nə, harada, nə vaxt” və “Breyn rinq” intellektual yarışları tipli turnirdə Sumqayıt, Ağcabədi, Masallı, Lənkəran, Gəncə (iki komanda – Gəncə Dövlət Universitetinin mədəniyyət könüllüləri və regional idarə) və Şamaxı komandaları finala çıxmışdılar.

Final mərhələsi başlamazdan öncə YARAT-ın təhsil proqramları meneceri Ruqiyyə Salmanova, MEMİM-in layihə rəhbəri Ceyhun Əhmədov çıxış edərək yarış iştirakçılarına uğurlar arzuladılar. Tədbirdə Ceyhun Əhmədovun tərtib etdiyi “İntellektual oyunların keçirilmə qaydaları” metodiki vəsaitinin təqdimatı da oldu.

Mərkəzin direktoru Asif Usubəliyev bildirdi ki, belə turnirlər gənc mədəniyyət işçilərinin hazırlıq və intellektual səviyyəsini artırmaq, onların arasında koordinasiyanı gücləndirmək, intellektual turnir təcrübəsi qazandırmaq məqsədi daşıyır.

Final mərhələsi üç taymdan ibarət idi. Hər taymda iştirakçılara 12 sual və hər sualı cavablandırmaq üçün 1 dəqiqə vaxt verildi. Komandalar cavabları yazılı şəkildə təqdim etdikdən sonra aparıcı düzgün cavab variantını səsləndirirdi. Bununla da hansı komandanın neçə suala düzgün cavab verdiyi bilinmədiyi üçün əsl yarış ruhu sonadək davam etdi. Yeri gəlmişkən, intellektual turnir Nəsiminin 650 illik yubileyinə həsr olunsa da, suallar heç də yalnız Nəsimi yaradıcılığına aid deyildi. İştirakçılar daha çox Azərbaycan, qismən də dünya mədəniyyətinin, demək olar ki, bütün sahələrinə dair biliklərini ortaya qoymalı oldular.

Sonda məlum oldu ki, 16 suala düzgün cavab verən Gəncə Regional Mədəniyyət İdarəsinin komandası turnirin qalibidir. İkinci yerə 15 düzgün cavabla Gəncə Dövlət Universitetinin könüllüləri, 13 sualın cavabını tapan Sumqayıt Regional Mədəniyyət İdarəsinin komandası üçüncü yerə çıxdı. Qalib komandalara diplom və hədiyyələr təqdim edildi.

Tədbir çərçivəsində 2019-cu ildə öz işində fərqlənmiş 5 gənc mədəniyyət işçisinə MEMİM-in mükafatları təqdim olundu.

**G.MİRMƏMMƏD**

# Vaqif Mustafazadənin ev-muzeyində xatirə gecəsi

Dekabrın 16-da görkəmli pianoçu, bəstəkar, caz-muğam janrının banisi, Əməkdar artist Vaqif Mustafazadənin (1940-1979) İçərişəhərdəki ev-muzeyində sənətkarın xatirə gecəsi keçirildi.



Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkil etdiyi tədbirdə musiqi ictimaiyyətinin nümayəndələri, tanınmış caz ifaçıları, paytaxt muzeylərinin əməkdaşları iştirak edirdilər.

Xatirə mərasimində çıxış edən ev-muzeyin direktoru, V.Mustafazadə adına Xeyriyyə Fondunun sədri Afaq Əliyeva, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da tanınıb sevilən cazmenin vəfatından 40 il ötdüyünü diqqətə çatdırdılar, Vaqif Mustafazadə sənəti ilə bağlı fikirlərini bölüşdülər.

Çıxışlarda caz əfsanəmizin yaradıcılıq yolu və uğurları, ölməz sənətkarın irsinin təbliği istiqamətində görülən işlər haqqında məlumat verildi. Qeyd edildi ki, Vaqif Mustafazadə Azərbaycan muğamının klassik Amerikan caz musiqisi ilə sintezini – caz-muğam janrını yaradıb. Onun musiqimizdə etdiyi yeniliklər indiyədək öz aktuallığını qoruyub saxlayır. Bu günün özündə belə bir çox musiqiçilər öz ifalarında məhz Vaqif Mustafazadənin yaratdığı caz-muğam sintezindən istifadə edirlər.

Tədbirin bədii hissəsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələri və akademiyanın müəllimi Gülsüm Eldarova Vaqif Mustafazadənin “Mart”, “Düşüncə” və digər ölməz əsərlərini ifa etdilər.

Gecənin sonunda Afaq Əliyevanın dəstəyilə buraxılmış “Vaqif Mustafazadənin caz kompozisiyaları” diskinin təqdimatı reallaşdı.

Qeyd edək ki, dekabrın 16-da – Vaqif Mustafazadənin anım günündə sənətkarın məzarı da ziyarət olunub.

**NURƏDDİN**

# “Unudulmayanlar”da Qədir Rüstəmov anıldı



Beynəlxalq Muğam Mərkəzinin “Unudulmayanlar” layihəsinin dekabrın 14-də keçirilən növbəti tədbiri Xalq artisti, xanəndə Qədir Rüstəmovun xatirəsinə həsr olunmuşdu.

Gecə xanəndənin ifasında “Sona bülbüllər” mahnısının videoyazısı ilə başladı.

Tədbirin aparıcısı – tədqiqatçı-alim Gülhüseyn Kazımlı xanəndənin həyat və yaradıcılığından söz açdı. Diqqətə çatdırdı ki, xanəndəyə Azərbaycanın görkəmli şairləri şeirlər həsr ediblər. Xalq şairi Bəxtiyar Vahabzadənin yazdığı şeirdən nümunə söyləyən aparıcı vurğuladı ki, Qədir Rüstəmov təkcə adi vətəndaşların, muğam həvəskarlarının sevimli xanəndəsi deyildi, dövrün böyük sənət adamları onun haqqında çox dəyərli fikirlər söyləyiblər. Onun haqqında deyilən fikirlərdən biri də təqribən belədir: “Qədir oxuyanda nədənsə iplə göyün ənginliklərinə dırmaşan bir adam gəlir xəyalıma. Qələbəlikdən seçilən, çoxluqdan arınan, dünyadan qopan çəlimsiz bir adam. İndi yıxılar, bu saat yıxılar! Amma yıxılmır. Qalxdıqca qalxır, yüksəldikcə yüksəlir, qalxıb-yüksəldikcə daha uzaqlardan, daha ucalardan görünür”. Bəli, Qədir Rüstəmov səsi ilə ucaldı və bu gün o, muğam ifaçılığı sənətində dərin ehtiramla yad edilərək qəlblərdə yaşamaq ucalığına nail ola bildi.

Gecədə yazıçı-publisist Aqil Abbas, Xalq artisti, tarzən Ramiz Quliyev, şairlər Ramiz Məmmədzadə, Yusif Savalan Qədir Rüstəmovla bağlı xatirələrini bölüşdülər.

Ramiz Quliyev unudulmaz xanəndə ilə birgə Xalq yazıçısı Anarın ssenari müəllifi və rejissoru olduğu “Üzeyir ömrü” (“Uzun ömrün akkordları”) filminə çəkilişlərlə bağlı xatirələrini danışdı. Qeyd edək ki, bu filmdə Ramiz Quliyev muğam sənətimizdə öz dəst-xətti olan tarzən Qurban Pirimovu, Qədir Rüstəmov isə xanəndə Cabbar Qaryağdıoğlunun obrazını yaradıb. Filmdən kadrlar nümayiş olundu.

Gecədə əməkdar artistlər Sevinc Sarıyeva, İlkin Əhmədov, Cabir Abdullayev, Firuz Səxavət, xanəndələr Əlyar Məmmədov, Ağakərim Nafiz Qədir Rüstəmovun repertuarından muğam və xalq mahnıları ifa etdilər. İfaçıları Rövşən Qurbanovun rəhbərliyi ilə “Buta” instrumental ansamblı müşayiət edirdi.

Sonda ailə üzvləri adından Qədir Rüstəmovun oğlu Mehdi Rüstəmov çıxış edərək atasının sənətinə dövlət tərəfindən hər zaman diqqət göstərildiyini qeyd edərək tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi.

**LALƏ**

# Almaniya mədəni əməkdaşlığa dair müqavilə imzalanmasını təklif edir

Mədəniyyət naziri Əbülfəs Qarayev dekabrın 13-də Almaniyanın Azərbaycandakı səfiri Volfqanq Maniqlə görüşüb. Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin mövcud vəziyyəti və perspektivləri müzakirə olunub.



Əbülfəs Qarayev Azərbaycan ilə Almaniya arasında, bir çox sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də münasibətlərin inkişaf etdiyini bildirərək indiyədək görülən işlərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Ölkəmizdə mədəniyyət sahəsində həyata keçirilən layihələr haqqında məlumat verən nazir Almaniya tərəfini birgə əməkdaşlıqda fəal olmağa dəvət edib. Əbülfəs Qarayev müasir incəsənət, teatr, musiqi sahələrində qarşılıqlı mübadilənin həyata keçirilməsinin bu əməkdaşlığa əhəmiyyətli təsirini diqqətə çatdırıb.

Səmimi qəbula görə nazirə təşəkkürünü bildirən səfir Volfqanq Maniq Almaniya-Azərbaycan mədəni əlaqələrinin daha da inkişaf etdirilməsi üçün müvafiq əməkdaşlıq müqaviləsinin imzalanmasını təklif edib. Diplomat bu əməkdaşlığın Almaniya ilə Azərbaycan arasında hərtərəfli münasibətlərin dərinləşməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Görüşdə qeyd olunan təkliflər və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# “Gələcək nəsillərə yatırım”

## Kiotoda Dünya Turizm və Mədəniyyət Konfransı keçirilib

Birləşmiş Millətlər Dünya Turizm Təşkilatı (UNWTO), BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) və Yaponiya Hökumətinin birgə təşkilatçılığı ilə 12-13 dekabr tarixində Yaponiyanın Kioto şəhərində “Gələcək nəsillərə yatırım” mövzusunda 4-cü Dünya Turizm və Mədəniyyət Konfransı keçirilib.

Tədbirin məqsədi turizm və mədəniyyət sektorları arasında əməkdaşlığın inkişaf etdirilməsi və ortaq mədəni irsin qorunması üçün dövlət-özəl sektor tərəfdaşlığının artırılması yollarının müzakirəsidir. Konfransda Mədəniyyət Nazirliyi Aparat rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə iştirak edib.

Konfransın açılış mərasimində UNESCO baş direktorunun müavini Xinq Qu, UNWTO-nun icraçı direktoru Manuel Butler və başqa çıxışçılar müasir dövrdə mədəni irsin rolu, turizm məqsədilə səyahət edən insanların mədəniyyət məkanlarını ziyarət etməsi və mədəniyyət məhsullarından istifadə ilə bağlı birgə proqramların həyata keçirilməsindən bəhs ediblər.



Konfrans çərçivəsində keçirilən sessiyalarda BMT-nin Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi ilə bağlı məsələlər, eləcə də yaradıcı sənayelərin rolu və inkişaf etdirilməsi, səyahət edən insanlar üçün ölkələrin yaradıcı sənaye və mədəni irs məhsullarının zənginləşdirilməsi mövzuları müzakirə edilib. Qeyd olunub ki, mədəni turizm bu prosesdə əsas rol oynayır.

Səfər çərçivəsində Vasif Eyvazzadə UNESCO baş direktorunun müavini Xinq Qu, təşkilatın sabiq baş direktoru Koişiro Matsuura və bir sıra ölkələrin nümayəndələri ilə Azərbaycanda mədəniyyət və mədəni irs, yaradıcı sənaye sahələrində həyata keçirilən layihələr barədə fikir mübadiləsi aparıb.

UNESCO baş direktorunun müavini ilə həmçinin “Bakı Prosesi”, Dünya Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Beynəlxalq Humanitar Forumu müzakirə edilib. 2018-ci ildə Bakıda keçirilən Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etdiyini deyən Xinq Qu paytaxtımızdan xoş təəssüratla ayrıldığını bildirib.

# Aşıq havalarından ibarət audio albom

Azərbaycan Aşıqlar Birliyinin (AAB) hazırladığı “Klassiklər və müasirlər” adlı aşıq havalarından ibarət audio albom işıq üzü görüb. Albomda həm klassik ustad aşıqların lent yazılarına, həm də müasir aşıqların ifalarına yer ayrılıb.




AAB-nin katibi, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə Aşıqlar Birliyi üçün ayrılan maliyyə vəsaiti hesabına hazırlanan albomda klassik ustad aşıqlardan Dədə Şəmşir, İslam Yusifov, Hüseyn Cavan, Əmrah Gülməmmədov, Şakir Hacıyev, Nabat Cavadova, İmran Həsənov, Hüseyn Saraçlı, Məmmədağa Babayev, Mikayıl Azaflı, İsfəndiyar Rüstəmov, Kamandar Əfəndiyev, Əkbər Cəfərov, Ədalət Nəsibov və Pənah Pənahovun repertuarından məşhur ifaları yer alıb.

Diskdə həmçinin əməkdar mədəniyyət işçiləri Ağamurad Şirvanlı, Əhliman Şirvanlı və Samirə Əliyevanın, eləcə də Səlim Göyçəli, Əli Tapdıqoğlu, Qələndər Zeynalov, Altay Məmmədli, İlham Aslanbəyli, Gözəl Kəlbəcərli, Ramin Qarayev, Şaiq İncəli, Nəbi Nağıyev, Nazim Quliyev, Elbrus Hüseynov, Şöhrət Kərimov, Avdı Musayev, Elməddin Məmmədli və Şəhriyar Qaraxanlının, Əməkdar mədəniyyət işçisi Gülarə Azaflının rəhbərlik etdiyi “Çeşmə” folklor qrupunun ifasında aşıq havaları toplanıb.

# Ankarada Çingiz Aytmatovun heykəli ucaldılıb

Ankaranın Keçiören rayonunda türk dünyasının ortaq dəyəri, böyük qırğız yazıçısı Çingiz Aytmatovun adını daşıyan parkda ədibin heykəlinin açılışı olub.



Çingiz Aytmatovun anadan olmasının 91-ci ildönümünə təsadüf edən mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın baş məsləhətçisi Yalçın Topçu, Keçiören Bələdiyyəsinin başqanı Turqut Altınok, Qırğızıstanın Türkiyədəki səfiri Kubanıçbek Ömüraliyev və başqa qonaqlar, media mənsubları iştirak ediblər.

Yazıçının anadan olmasının ildönümü Qırğızıstanın paytaxtı Bişkekdə də anılıb. "Ata Beyt" qəbiristanlığında uyuyan Ç.Aytmatovun məzarına əklil qoyulub.

Yazıçının həyat yoldaşı Mariya Aytmatova ürək sözlərini: "91 il əvvəl böyük insan dünyaya gəldi. Yazdığı əsərləriylə xalqını və ölkəsini dünyaya tanıtdı. Yeni nəsil də onun istedadı və əsərlərindən ilham almağa davam etməli, nəsihətlərini yerinə yetirməli, dürüst olmalı və vətəninə xidmət etməlidir", - deyə ifadə edib.

**Mehparə SULTANOVA**
**Ankara**

# "Xarəzm ləzgi rəqsi" UNESCO siyahısında

Özbəkistanın "Xarəzm ləzgi rəqsi" UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Bu barədə qərar UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 9-14 dekabr tarixində Kolumbiyanın paytaxtı Boqotada keçirilən 14-cü sessiyasında qəbul olunub.

Bundan öncə Özbəkistanın "Şaşmakom" (muğam), "Katta Aşula" (musiqisiz ifa edilən mahnı), "Askiya" (kişilərin bir-biri ilə zarafatlaşması), "Plov ənənələri" bu siyahıya daxil edilib.

İclasda bildirilib ki, Özbəkistanın "Baxşi" (aşıq) sənətinin də UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə siyahısına salınması istiqamətində iş aparılır.

# "Bizim Albert" rəqs festivalına yekun vuruldu

Dekabrın 14-də Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illiyinə həsr edilmiş "Bizim Albert" rəqs festivalının yekun konserti keçirildi.





Festival Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Mərkəzi İncəsənət Məktəbinin birgə təşkilatçılığı ilə gerçəkləşib.

Tədbirdən öncə iştirakçılar Milli Qəhrəmanın paytaxtın Nərimanov rayonunda yerləşən abidəsini ziyarət etdilər.

Tədbiri musiqişünas Leyla Həsənova açaraq şəhidin həyat yolu haqqında məlumat verdi. Qeyd edildi ki, Albert Aqarunov 1969-cu il aprelin 25-də Bakı şəhərində anadan olub. Suraxanı rayonundakı 154 nömrəli məktəbin 8-ci sinfini bitirərək peşə məktəbində sürücü-mexanik vəzifəsinə yiyələnib. 1987-ci ildə hərbi xidmətə çağırılan Albert orduda tank komandiri olub. Ermənistanın Dağlıq Qarabağa hərbi müdaxiləsi başlayanda A.Aqarunov könüllü olaraq cəbhəyə yollanıb. O, Xankəndi, Daşaltı, Cəmilli istiqamətində gedən döyüşlərdə erməni işğalçılarının xeyli canlı qüvvəsini və zirehli texnikasını məhv edib. 1992-ci il mayın 8-də Şuşa uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gələn Albert döyüş meydanında şəhid olub. Azərbaycan Prezidentinin 1992-ci il 7 iyun tarixli fərmanı ilə Albert Aqarunoviç Aqarunov ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülüb.

Tədbirdə Milli Qəhrəmanın döyüş yoldaşları da iştirak edirdilər. Onlardan tank batalyonunun sabiq komandiri Hacı Əzimov qeyd etdi ki, yəhudi əsilli Albert doğulub-böyüdüyü Azərbaycan torpağını çox sevirdi: "Ailəsinin və onun İsrailə köçmək üçün vizaları var idi. Amma deyirdi ki, müharibə bitəndən sonra gedəcək. Dostlarını, yaxınlarını döyüş meydanında tək qoya bilməz. Bütün heyət onu çox istəyirdi. O, hər zaman bildirirdi ki, bu torpaqda doğulub, bura onun vətənidir".

Hacı Əzimovun sözlərinə görə, Albert Şuşa şəhərinə çıxanda hamı sanki tamaşa seyr edirmiş kimi onu izləyirdi: "Albertin çox arzusu var idi. Söyləyirdi ki, müharibə qurtarandan sonra zabit olacaq. Ancaq vaxtsız ölüm onun bu arzusunun həyata keçməsinə imkan vermədi".

Mərkəzi İncəsənət Məktəbinin direktoru, Albert Aqarunovun sinif yoldaşı, Əməkdar artist Əziz Qarayusifli onunla bağlı xatirələrindən danışdı.

Mədəniyyət Nazirliyi Elm və tədqiqatlar sektorunun müdiri Vüqar Baxışov bildirdi ki, Albert Aqarunovun həyat yolu hər bir gənc üçün örnəkdir və Azərbaycan xalqı onun qəhrəmanlığını heç vaxt unutmayacaq.

Daha sonra məktəbin səhnəsi rəqs kollektivlərinin ixtiyarına verildi. Təhsil Nazirliyi 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi, Xəzər Universiteti, Q.Qarayev adına Mərkəzi İncəsənət Məktəbi, S.Ələsgərov adına 1 nömrəli İncəsənət məktəbi və F.Əmirov adına 6 nömrəli İncəsənət məktəbinin rəqs qrupları "Azərbaycanım", "Sarı gəlin", "Gözəlim sənsən", "Odlar yurdu" və s. mahnıların sədaları altında çıxış etdilər.

Sonda festivalda iştirak etmiş kollektivlərə diplomlar təqdim edildi.

**Nurəddin MƏMMƏDLİ**

Cəfər Cabbarlı – 120

# Ədibin arzusu

Görkəmli Azərbaycan dramaturqu və teatr xadimi Cəfər Cabbarlı ömrünün qısa, lakin mənalı illərini, demək olar ki, əvvəldən axıra kimi Bakı şəhərində keçirib. Lakin buna baxmayaraq o, mütəmadi olaraq əyalət teatrlarının fəaliyyəti ilə də maraqlanıb, həmin sənət ocaqlarında çalışan aktyor və rejissorlardan dəyərli məsləhətlərini əsirgəməyib. Lənkərana xüsusi məhəbbəti olan ədib bu əsrarəngiz cənub şəhərində də olmaq arzusunda idi...

Arxiv sənədlərində teatr rejissoru Əli Mənsur Quliyevin Cəfər Cabbarlı ilə görüşləri barədə xatirələri mühafizə olunmaqdadır. "1934-cü ildə Lənkəranda işçi-kolxozçu dövlət teatrı yaratmaq haqqında təşəbbüs irəli sürdüm, – deyə Ə.M.Quliyev yazır. – İlk tamaşanı həmin ilin dekabr ayında göstərməli idik. Mən Bakıya gəlib Cəfərlə (C.Cabbarlı ilə – A.B.) görüşdüm. Onu Lənkərana dəvət etdim və dedim ki, teatrın təntənəli açılışı olacaq. Opera teatrından, Dram teatrından, Xalq Maarif Komissarlığından da nümayəndələr çağırmışıq. Cəfər gülə-gülə: – Paraxod məni tutmaz? – dedi. Mən isə: – Yox, "Kalantay" çox böyük paraxoddur, – deyə cavab verdim.

C.Cabbarlı belə məsləhət gördü ki, açılışı yanvar ayında edək. Mən razılaşdım. Ancaq sənətkarın qəfil ölümü bu arzunu ürəyimdə qoydu. Dəfn mərasimindən bir neçə gün sonra Lənkərana qayıtdım".

Bununla belə dramaturqun çox sevdiyi şəhərlə "görüşü" onun əsərinin tamaşaya qoyulması ilə baş tutdu. 1935-ci il fevralın 14-də Lənkəran teatrı C.Cabbarlının "Almaz" pyesinin premyerası ilə öz pərdəsini qaldırdı. İlk tamaşanın quruluşunu teatrın direktoru və rejissoru Əli Mənsur Quliyev vermişdi. Tamaşada iştirak edən aktyor heyəti rayon xalq teatrının yetirmələrindən və Bakı teatrlarından dəvət olunmuş bir neçə artistdən ibarət idi. Ən təqdirəlayiq cəhət isə onda idi ki, Lənkəran teatrına həm də Cəfər Cabbarlının adı verilmişdi.

Lakin 1940-cı ildə məlum olmayan səbəblərdən C.Cabbarlının adı Lənkəran teatrından götürüldü. Fikrimizcə, Azərbaycanın ikinci böyük şəhəri Gəncədə fəaliyyət göstərən teatrın da Cəfər Cabbarlının adını daşıması belə bir qərarın qəbul edilməsinə rəvac vermişdi. Buna baxmayaraq, görkəmli dramaturqun əsərləri həmişə Lənkəran teatrının repertuarında yer alıb.

Müəyyən fasilədən sonra, 1973-cü ildən fəaliyyətini bərpa edən Lənkəran Dövlət Dram Teatrının kollektivi də ənənəyə sadiq qalaraq dəfələrlə Cəfər Cabbarlının yaradıcılığına müraciət edib. Ədibin "Oqtay Eloğlu", "Aydın", "Sevil", "Solğun çiçəklər" kimi dram əsərləri müvəffəqiyyətlə tamaşaya qoyulub. Bu yaxınlarda isə teatrda dramaturqun 120 illik yubileyinə töhfə olaraq "Vəfalı Səriyyə, yaxud gözyaşı içində gülüş" dramının premyerası keçirilib. Tamaşa həmçinin qonşu Lerik rayonunda oynanılıb. Səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Firudin Məhərrəmov, quruluşçu rəssamı Ramazan Ağayev, bəstəkarı Eldar Salayevdir.

Noyabrın 27-də isə Lənkəran Dövlət Dram Teatrının aktyorları Bakıda keçirilən "Cəfər Cabbarlı həftəsi" çərçivəsində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində "Vəfalı Səriyyə, yaxud gözyaşı içində gülüş" tamaşası ilə paytaxt sənətsevərləri qarşısında çıxış ediblər.

**Ağaddin BABAYEV**
**Lənkəran Dövlət**
**Dram Teatrının ədəbi-dram**
**hissə rəhbəri**

# Vətən yanğılı misralar müəllifi

*...Seçilməz laləzardan,*
*mən əsgərəm əlimdən*
*O bayrağı verməərəm,*
*öz canımı verərəm,*
*Qarabağı verməərəm!*

Vətən yanğılı bu misraların və neçə-neçə dillər əzbəri olan şeirlərin müəllifi görkəmli şair, tərcüməçi, Əməkdar incəsənət xadimi Tofiq Bayram XX əsr Azərbaycan poeziyasında öz dəst-xətti ilə seçilən sənətkarlardandır. Xarakterindəki bütövlük, çılğınlıq, şeirlərində və bütün yaradıcılığında özünü göstərir. Ona görə də şeirləri dillər əzbərinə çevrilib, bəstəkarların barmaqları ilə şirin nəğmələrə dönərək insanların qəlbinə hərarət gətirib. Bu il 85 illiyi qeyd olunan şair xatirələrdə həm də gözəl insan kimi qalıb.

Tofiq Qulam oğlu Bayram 1934-cü il dekabrın 16-da Bakının Əmircan kəndində anadan olub. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Tarix fakültəsində təhsil alıb. Əmək fəaliyyətinə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında şöbə müdiri kimi başlayıb. Sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi işçi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında ədəbi hissə müdiri, "Ulduz" jurnalı və "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyalarında şöbə müdiri, "Yazıçı" nəşriyyatında baş redaktor müavini işləyib.

Bədii yaradıcılıqla yanaşı, tərcümə ilə də məşğul olan Tofiq Bayram Lope de Veqanın "Hiyləgər məşuqə" pyesini dilimizə tərcümə edib. Azərbaycan oxucusu həmçinin A.Tvardovskinin "Üfüqlərdən-üfüqlərə", dünya xalqlarının incilərindən ibarət "Ürəkdən-ürəyə" toplusunu, R.Həmzətovun "Durnalar" və "Dostları qoruyun" şeir kitablarını, A.Puşkinin "Motsart və Salyeri" pyesini, A.Axmatovanın "Rekviyem" poemasını, habelə Y.Yevtuşenko, İ.Abaşidze, T.Ciladze, Q.Quliyev və başqalarının əsərlərini T.Bayramın tərcüməsində oxumaq imkanı qazanıb. Ömrünün böyük bir hissəsini bu işə sərf edən fədakar şair tərcümə əsərini əmanət sayar, "əmanətə xəyanət olmaz" deyər, tərcümə prosesini "qan-köçürmə əməliyyatı"na bənzədər – "qan qrupu uyğun olmayanda tərcümə olunan şeir də xəstə olur" deyərmiş.

Öz əsərləri ilə Azərbaycan ədəbiyyatına verdiyi töhfələrə görə T.Bayram 1984-cü ildə "Əməkdar incəsənət xadimi", dünya xalqlarının poeziyasından nümunələrin yüksək peşəkarlıqla Azərbaycan dilinə tərcümə edilməsindəki əməyinə görə isə 1988-ci ildə "Maksim Qorki adına Azərbaycan Dövlət mükafatı"na layiq görülüb...

T.Bayramın "şəkərli diabet"dən çəkdiyi ağrıların üzərinə daha bir dəhşətli ağrı gəldi – Qarabağ ağrısı. O, xəstəliyin ağrılarına dözsə də, Vətən ağrısına dözə bilmədi və 1991-ci il aprel ayının 19-da dünyasını dəyişdi, doğulduğu kənddə torpağa tapşırıldı.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Əmircan qəsəbəsindəki istirahət parkında şairin əzəmətli büstü ucaldılıb və bu məkana T.Bayramın adı verilib. 1998-ci il sentyabr ayının 24-də parkın yenidənqurmadan sonra açılış mərasimində iştirak edən Prezident Heydər Əliyev çıxışında deyib: "Suraxanı torpağı Azərbaycana, xalqımıza böyük insanlar vermişdir. Onların arasında Tofiq Bayramın xüsusi yeri var. O, Azərbaycanda gözəl şeirləri, əsərləri, onun şeirlərinə bəstələnmiş mahnıları, fədakar yaradıcılığı ilə tanınmış və məşhur olmuşdur. Tofiq Bayramın sağlığında da xalq həmişə ona sevgi və məhəbbətini, hörmətini bildirmişdir".

### "Yaşaya bilmərəm bir gün inamsız..."

Tofiq Bayram istedadlı və özünəməxsus deyim-duyum tərzi olan şairdir. Onun şeirlərində vətənpərvərlik hissləri güclüdür. Şairin elə şeirləri var ki, onları həyəcansız oxumaq mümkünsüzdür. Bəli, oxucularla şeir dililə danışmaq, onların qəlb tellərini dindirmək şairdən hünər tələb edir. Kitablarını diqqətlə nəzərdən keçirdikcə onun şeirlərinin mayasının həyatla, insanla qaynayıb-qarışdığını görürük. Onun bütün şeirlərində səmimilik və təbiilik vardır.

*Yuxu da, nağıl da köçdü beşikdən,*
*Dəyişdi gözümdə bu həyət-baca.*
*Bir gün körpəliyim düşdü beşikdən,*
*Dəcəl uşaqlığım çıxdı ağaca...*

Səmimiyyət şeir üçün əsas amillərdəndir. Ürəklərə yol tapan, könülləri dilləndirən, dillər əzbəri olan əsərlər, əlbəttə, qəlblə, ilhamla yazılmış şeirlərdir. T.Bayram yaradıcılığında ahu-zar, küskünlük kimi motivlərdən yayınmağa çalışdı. Şair həmçinin ömrünün son anına kimi sünilikdən uzaq qaçdı, təbii oldu. Bu sözlər də dilinin əzbəri idi: "Təbii olmaq eyib deyil...".

T.Bayram üçün ülvi, təmiz məhəbbət Tanrı qədər əlçatmaz, əziz, müqəddəs idi. Deyərdi: "Qaya parçasını, daşı da ürəkdən sevsən, üzünə gülər. Şirin, xoş söz nəvazişdən quruyan bulaqların gözü açılar".

Şeir və poemalarını Vətənə, ana dilinə məhəbbət və vətəndaşlıq yanğısı ilə yazan şair "poeziya hər şeydən əvvəl şairin inamından, onun əqidəsindən yaranmalıdır" fikrinə inandığını həmişə dilə gətirib, "İnamım, əqidəm" şeirində də bu fikrini sübuta yetirib:

*Yaşaya bilərəm odsuz, ilhamsız,*
*Yaşaya bilərəm çörəksiz, susuz.*
*Yaşaya bilərəm yüz il yuxusuz,*
*Yaşaya bilmərəm bir gün inamsız...*

Fikrini yığcam və sərrast ifadə etmək məharəti T.Bayram poeziyasının əsas xüsusiyyətlərindəndir. O, nə yazırsa, nədən yazırsa yazsın, qələmə aldığı mövzunu ürəyinin süzgəcindən keçirib, hər misrasına poetik don geyindirib. Fikrini aydın və obrazlı şəkildə çatdırıb, ən əsası isə, oxucuya həyəcan yaşatmağı bacarıb. Şair həm də əsərlərində dünyaya, həyata açıq gözlə baxmağı təlqin edirdi.

T.Bayram əsl yaradıcı insan olaraq, içərisində yaşadığı cəmiyyətdə cərəyan edən hadisələrə vətəndaş vicdanı ilə cavabdeh olduğunu bilərək öz mövqeyini ortaya qoyur, nöqsanlı cəhətləri qəzəblə qamçılayırdı. Şairin xoşbəxtliyi onda idi ki, özü dediyi kimi o, həmişə ağıllı, zəngin dünyagörüşü olan, təmənnasız insanların əhatəsində olmuşdu.



### "Qonşular telinə çiçək bağlayır..."

Görkəmli şair qadınlara-analara həmişə böyük ehtiramla yanaşıb. Onun yaradıcılığında qadın-ana mövzusu aparıcı yerlərdən birini tutub və şair onlara olan tükənməz sevgisini "Analıq haqqı", "Ana sevinci, ana qəzəbi", "Anam ağlayır", "Qadınlar və analar haqqında qəsidə", "Ay gecikən məhəbbətim", "Qadın ürəyi", "Şair arvadına" və s. şeirlərində ürəklə, ilhamla ifadə etməyə müvəffəq olub. "Analıq haqqı" şeirində "Yüz il dayansam da qulluğunda mən, Ay ana, birgünlük haqqın ödənməz", – deyən şair, bacısı gəlin köçdüyü zaman yazdığı və sonradan bəstəkar Süleyman Ələsgərov tərəfindən musiqi bəstələnərək dillər əzbərinə çevrilən mahnıya çevrilmiş "Anam ağlayır" şeirində deyir:

*Duvağa bürünüb yola düşürsən,*
*Qonşular telinə çiçək bağlayır.*
*Ay bacım, sən haldan-hala düşürsən,*
*"Vağzalı" çalınır, anam ağlayır...*

Şairin həyat yoldaşı Zərifə xanım söyləyirdi ki, hələ institutda oxuyarkən Tofiq hər onu qarşılamağa gələrkən ona yeni şeirini verərmiş. Evdə kimsənin görəcəyindən ehtiyatlanaraq onların bəzilərini cırıb atsa da, sonralar ev arxivini araşdıran zaman, saralmış kağızlarda hələ də aydın oxunan bəzi şeirləri üzə çıxarıb. Xatirələri çözələyən Zərifə xanım deyirmiş: "Tofiq hərdənbir zarafat edərək, özü hiss eləmədən belə xətrimə dəysə də, mən buna münasibət bildirib bir söz deməzdim. Toy mərasimlərinin birində bu bir də təkrar olunandan sonra biz evə dönəndə sakit və mülayim səslə ona "Tofiq, sən mənim qəlbimə dəydin, toxundun, ancaq mən sənə heç nə demədim", – deyərdim. Onun kövrəlib mətbəxə keçdiyini və bir az keçmiş

*Necə rəhmlidir, necə amansız,*
*Necə mehribandır qadın ürəyi.*
*Sən onu sındırsan, bil ki, a qansız,*
*Ağlayan kamandır qadın ürəyi...*

– misraları ilə başlayan təzəcə yazdığı "Qadın ürəyi" adlı şeiri ayaq üstə mənə oxuyub könlümü aldı...".

Şair yaradıcılığında gah beşik başında nəvəsinə layla çalan ağbirçəkli nənədən, övladlarının qayğısı ilə yaşayan, ismətini hər şeydən üstün tutan həyat yoldaşından, gah da ilk məhəbbətin acısını-şirinini təzəcə dadan növrəstə qızdan söz açır. Müəllif ana laylasını dünyada ən şirin nəğmə, ananı isə Yer üzünün ən böyük bəstəkarı adlandırır:

*Qadınlar dünyanın ən cəfakeşi,*
*Qadınlar dünyanın ən bəxtəvəri;*
*Hər evin qadındır tale günəşi,*
*Hər eşqin qadındır şirin bəhəri...*

***

Vüqarlı şair ölüm ayağında belə nikbinliyini qoruyurdu. O, 1990-cı ildə yataq xəstəsi idi. Qəzetlərin birində onun haqqında yazı dərc edilmişdi. Adı isə belə idi: "Necəsən, Tofiq Bayram)". Tofiq müəllim qəzet əməkdaşının sualına belə cavab vermişdi: "Mən hər zaman yaxşı olacağam".

Hər zaman sevilən şair, ruhun şad olsun!

**Aynurə ƏLİYEVA**

əvvəli səh. 1-də

# Güldürən, düşündürən...



## Sevgi övladı

Səhnəmizin və kinomuzun sevimlisi olan Münəvvər Səməd qızı Kələntərli 1912-ci il dekabrın 21-də Lənkəranda anadan olub. Üç oğul, iki qız atası olan Səməd kişi bu dəfə də qız övladının dünyaya gəlməsinə çox sevinib. Dövrün mövcud olan mövhumatçılıq mühitində bu kimi hallara nadir ailələrdə rast gəlinərdi. Bu isə belə bir mehriban ailə başçısı olan ailədə doğulan körpənin bəxtinin gətirməsi demək idi. Bu mənada qayğı ilə əhatələnən fidanı sevgi övladı adlandırmaq olar. Səməd kişi yeni doğulan körpəyə xeyir-duasını verərək onu Münəvvər (nur çöhrəli) adlandırıb. Sevgisini, qayğısını digər uşaqları kimi ondan da əsirgəməyib. Ümumiyyətlə, ailəsinə qarşı daim diqqətli olan, məhəbbətini əsirgəməyən Səməd kişini sadə, səmimi insan kimi xatırlayırlar. Atanın bu cəhətləri övladlarına da təsir etmişdi. Gələcəyin peşəkar aktrisası kimi tanınan Münəvvər Kələntərlinin ailəsindəki səmimiyyət, xoş ünsiyyət, insanlara sevgi, hörmətlə yanaşmaq onun həyat və sənət yolunda, demək olar ki, yaşıl işıq yandırıb. Bu mənada uğurun xarakterlə bağlılığı çoxdur deyə bilərik. Aktrisanı sənətindən əlavə bir şəxsiyyət kimi də ətrafdakılara sevdirən əsas səbəblərdən biri də onun müsbət şəxsi keyfiyyətə malik olmasıdır.

## Ana ürəkli xala

Münəvvər xanımın bacısı qızı Nanə Kələntərli müsahibəsində deyir: "Mənim atam da, anam da tez rəhmətə getmişdi. Mən, bacılarım və qardaşım yetim qalmışdıq. Mina bizə analıq eləyib. O, əsl ana ürəkli xala idi. Biz ona Mina deyirdik. O, çox mehriban qadın idi. Bu xüsusiyyət ona ata və anasından keçmişdi. Onun atası Səməd kişi tacir olub. Anası Pəricahan xanımsa evdar qadın idi. Üç bacı, üç qardaş idilər. Qardaşı Haşım Kələntərli dövrünün tanınmış muğam ustası idi. Digər qardaşı Məmmədhüseyn bacarıqlı çəkməçi idi, Cabbar isə İkinci Dünya müharibəsindən qayıtmamışdı. Biz sonralar da Cabbar dayıma görə çox yerə yazdıq, arxivlərə, digər respublikalara müraciət etdik, amma heç bir yerdən bizə cavab gəlmədi. Anam Humra xanım da evdar qadın idi. Xalam Xanbacı xanım ata ocağında yaşayırdı, xasiyyətcə nə anama, nə də Minaya oxşayırdı, məzəli cəhətləri çox idi. Ümumiyyətlə, bu ailədə böyüyən uşaqların oxşar cəhətlərindən biri bu idi ki, sanki onların hər biri anadangəlmə komediya artisti idilər.

Mina 16 yaşına qədər Lənkəranda yaşayıb. Qardaşı Haşım bəy bacısının sənətə sevgisini görürdü. Bu onu sevindirməyə bilməzdi. Buna görə də "Mən bilirəm ki, Münəvvərin istedadı böyükdür, o, mütləq Bakıya getməlidir" deyərək bacısının istedadını doğru səmtə istiqamətləndirir. Həmin vaxtlarda qızları ailələri səhnəyə buraxmazdılar. Ancaq Haşım bəyin sözünün qarşısında kimsə söz deyə bilməzdi. Beləliklə, Mina Bakıya gəlir".

## Fərdilik - fərqlilik

Münəvvər xanımın Bakıya gəlişi onun həyat və sənət missiyasını daha da zənginləşdirib. Həmin vaxtlarda Azərbaycan səhnəsində aktrisaların az olması səhnə və kino sənətinin inkişafını ləngidir, qadın obrazlarının qıtlığına səbəb olurdu. Sənətə bütün varlığı ilə bağlı olan Münəvvər xanım min bir əziyyətlə təşəkkül tapan Azərbaycan teatr və kino sənətinin insanlar üçün nə qədər böyük önəm daşıdığının fərqinə varır, sonralar opera və operetta tamaşalarında oynadığı rolları həyat hadisələrinin şərhi kimi təqdim edirdi.

1933-cü ildən o, Haşım bəyin təklifi, bəstəkar Müslüm Maqomayevin dəvəti ilə Azərbaycan Dövlət Opera və Balet Teatrının xor qrupuna işə götürülüb. Burda bir müddət işlədikdən sonra sənət yolunu Musiqili Komediya Teatrından salıb. Teatrın səhnəsində "O olmasın, bu olsun"da Sənəmi, "Arşın mal alan"da Cahan xalanı, həmçinin bir sıra tamaşalarda məzmunlu, koloritli rollar yaradıb. Azərbaycan qadınının tipik cəhətlərini, mülayim, zəhmətkeş, yeri gələndə sərt, bəzənsə qayğıkeş xüsusiyyətlərini dolğun və real çalarlarla tamaşaçıya çatdırıb. Nanə Kələntərlinin müsahibəsindən: "Mina sənətdə çox aktrisaya, o cümlədən görkəmli sənətkar Nəsibə Zeynalovaya yol göstərib. Nəsibə xanım böyük sənətkar idi. Bununla belə həmişə deyərdi ki, Mina sənətdə mənim müəllimimdir".

Münəvvər xanım 17 yaşından etibarən böyük sevgi və şövqlə sarıldığı sənətini yüksək səviyyədə təbliğ edib. Fərdi cəhətlərinə istinadən sənətdə fərqlilik nümayiş etdirib. Cəmiyyətin, eləcə də teatr ictimaiyyətinin rəğbətini qazanıb, sənətdə göstərdiyi xidmətlərə görə respublikanın Əməkdar artisti (1959) fəxri adına layiq görülüb.

## Nisgilli seçim

Məslək də, ailə də insan həyatının ayrılmaz hissəsidir. Amma neyləyəsən ki, taleyin ziddiyyətli məqamları, xoşbəxtliyin tamlığına rəvac vermədiyi qısqanc anları da var. Xoşbəxtliyini tamamlayacaq həyat sevincini bəzən paralel yaşamaq mümkün olmur. Edilən seçim isə qəlbdə bir ömür nisgil yaşadır. Sənət sevincini taleyinin boyuna biçən Münəvvər xanıma, təəssüflər olsun ki, ailə xoşbəxtliyini tam yaşamaq qismət olmayıb. O, Qusar rayonundan olan Ənvər adlı gənclə ailə qurub. Onların Validə adlı qızları dünyaya gəlib. Mehriban xanım, qayğıkeş ana daim ailə dəyərlərini uca tutsa da, Ənvər bir müddət sonra "ya ailə, ya səhnə" deyə onu çətin bir seçim qarşısında qoyub. Münəvvər xanım da xoşbəxtliyindən pay istəyən taleyinə boyun əyməklə həyatının mənası, nicatı bildiyi sənətini seçməli olub. Ənvərdən ayrıldıqdan sonra isə bütün həyatını sənətinə və yeganə qızı Validəyə həsr edib.

## Kinonun gətirdiyi xoşbəxtlik

Teatr aktyorlarının kinoya gəlişi çox vaxt uğurlu olub. Kino da öz növbəsində onları məşhurlaşdırıb, tamaşaçı auditoriyasını genişləndirib. Kino Münəvvər Kələntərlinin də sənət xoşbəxtliyini artırıb. Aktrisanın kinoda ilk işi dahi bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı əsəri əsasında çəkilən "Arşın mal alan" kinokomediyasındakı Cahan xala obrazıdır. O, bu rola 32 yaşında çəkilib. Film ekranlara çıxdıqdan (1945) sonra dünyanın 150-dən artıq ölkəsində nümayiş etdirilib. Bu uğurun əldə edilməsində yaradıcı heyətlə bərabər Münəvvər xanımın da böyük zəhməti var. Müharibə illərində çətin həyat şəraiti yaşayan yaradıcı heyətin filmi böyük sevgi və həvəslə ərsəyə gətirməsi, obrazların mövqeyini səmimiyyətlə təqdim etməsi ekran əsərinin koloritini artırıb, uzunömürlü edib. Filmdə maraqlı, incə ştrixlərlə işlənmiş məntiqli nüanslar çoxdur. Cahan xala maddi cəhətdən təmin olunsa da, təkliyi onu sıxır. Dövrün qanunsuzluqları, qadınların bir çox hüquqlardan məhrum olması onun da taleyinə boyun əyməsinə səbəb olub. Amma onun da xoşbəxt olmağa haqqı var. Bəs, görəsən, biçarə qadının mühiti, köhnəlmiş adət-ənənələr ona yenidən ailə həyatı qurmağa, tənhalığın daşını atmağa imkan verəcəkmi? Cahan xala həyatın girdabında əriməmək, tək qalmamaq üçün ailə qurmaq istəyini gerçəkləşdirməyə can atır. Soltan bəylə olan görüşü zamanı, eləcə də onunla olan dialoqunda onun dəyişdiyini, sakit, kədərli xanımın əslində həyat sevgisi ilə dolu olduğunu görürük. İnsanları parçalanmağa, təklənməyə qoymayan ailə tamlığı filmdə ali, vacib nüans olaraq qabardılıb. Münəvvər Kələntərlinin Cahan xala rolunu böyük şövq və yaşarı oynaması maraqlı ekran surətinin yaranmasına səbəb olub. Beləcə, hər bir rolun fərdiliyi və fərqliliyi koloritli ekran əsərlərinin sevilməsinə, onilliklər sonra belə qəlblərdə iz salmasına imkan verib. Elə buna görə də 1946-cı ildə filmin yaradıcı heyəti (yeddi nəfər), o cümlədən Münəvvər Kələntərli SSRİ Dövlət mükafatına layiq görülüb.

Münəvvər xanım ardıcıl olaraq 10 filmdə maraqlı, məzmunlu obraz yaratmağa müvəffəq olub. Aktrisanın ironik ifası, hadisələri dərindən duyma bacarığı, kameranın hərəkətinə məqamında həssaslıqla cavab vermə qabiliyyəti rolların nailiyyətinə imza atıb.

Keyfiyyətli komediya müsbət idealları, ən başlıcası isə ləyaqət hissini vurğulayır, təsdiq edir. Sözügedən xüsusiyyətlərə zidd olan həyat hadisələrini, insan xarakterlərini tənqid edir, gülüşlə qınayır. Həyatda nikbin, xoşxasiyyət olan aktrisanın daxili plastikası, istedad və bacarığı onun daha çox kinokomediyalarda rol almasına səbəb yaradıb. Bu mənada "Bəxtiyar" kinokomediyasında Gülzar xala, "O olmasın, bu olsun"da yengə, "Kazbek qutusu"nda Məmişovun arvadı, "Əmək və qızılgül" filmində yaratdığı Sonu obrazlarını təkcə aktrisanın yox, ümumilikdə milli kinomuzun uğuru hesab edirik. "Görüş" kinokomediyasındakı Münəvvər, "Qızmar günəş altında" filmindəki Gülbahar nənə, "Onun böyük ürəyi" filmindəki Səmayənin iş yoldaşı obrazları isə fərqli xarakterə, düşüncəyə malik personajlardır.

Müasirimizə çevrilən ekran obrazlarının inandırıcı olmasına rəvac verənsə hadisələrin mühitini qavrayan, dərindən duyan aktrisanın obrazların psixologiyalarına uyğunlaşdırdığı parlaq və qabarıq xarakterlərdir. Bu mənada Münəvvər xanım başdan-ayağacan milliliklə, məhəbbətlə, səmimiyyətlə yoğurulmuş xarakterlər ustası idi. Onun məhz sənətə olan sevgisi və dərin bilgisi rolların inandırıcı, orijinal, real alınmasına, sənətində şəxsiyyətini, şəxsiyyətində də sənətini xatırlatmasına səbəb olub.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

# Mədəni dəyərlər sistemində informasiya mədəniyyəti və kitabxanalar

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmlər doktoru hazırlığı üzrə dissertantı, tarix üzrə fəlsəfə doktoru Adilə Abdullayevanın "Mədəni-tarixi dəyərlər sistemində informasiya mədəniyyəti və kitabxanalar" adlı kitabı işıq üzü görüb.

Monoqrafiyanın elmi məsləhətçiləri tarix üzrə elmlər doktoru, BDU-nun fəxri professoru Abuzər Xələfov, Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə elmlər doktoru Aybəniz Əliyeva-Kəngərli, elmi redaktoru Əlyazmalar İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Cavid Cəfərov, rəyçi Rusiya EA Dövlət Kütləvi Elmi-Texniki Kitabxanasının aparıcı elmi işçisi, tarix üzrə elmlər doktoru, professor İrina Lizunovadır.

İnformasiya mədəniyyətinin formalaşdırılması problemi bugünkü Azərbaycan cəmiyyətində çox aktual məsələ olduğu üçün bu problem müxtəlif sahələrin mütəxəssisləri tərəfindən tədqiq edilib. Lakin cəmiyyətdə informasiya mədəniyyətinin formalaşdırılmasında kitabxanaların iştirakı ilk dəfə bu monoqrafiyada araşdırılmışdır. Müəllif Azərbaycanda informasiya mədəniyyəti anlayışının yaranmasından başlayaraq onun müasir informasiyalaşdırılmış cəmiyyətdə yeni inkişaf mərhələlərinə qədər keçdiyi yolu müəyyənləşdirmiş, informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların rolunu və əhəmiyyətini, bu istiqamətdə kitabxanaların fəaliyyətində baş verən inkişaf meyillərini, yeni iş üsullarını ümumiləşdirmiş, qazanılmış uğurları və mövcud problemləri araşdırmışdır. Müəllif mövzu üzrə bir çox mənbələrə müraciət etmiş, Azərbaycan, rus və ingilis dillərində 127 adda zəngin elmi ədəbiyyatdan bəhrələnmişdir.

Kitabda diqqəti cəlb edən məsələlərdən biri də ilk dəfə olaraq bu gün aktuallıq kəsb edən "Rəqəmsal savadlılıq", "İnternet savadlılığı", "Media savadlılığı", "Şəbəkə savadlılığı" kimi bir sıra anlayışların dünya alimlərinin yanaşmalarına əsaslanaraq şərh edilməsidir. "Azərbaycan kitabxanalarında informasiya mədəniyyətinin formalaşdırılmasının müasir vəziyyəti və perspektivlər" adlı bölmədə kitabxanalar informasiya mədəniyyətinin formalaşmasının tarixi mərhələlərində əsas vasitə kimi araşdırılmışdır.

Monoqrafiyada Azərbaycan Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, BDU-nun Elmi kitabxanası, "ADA" Universiteti kitabxanası və eləcə də bir sıra şəhər və rayonların MKS-ləri əsas tədqiqat obyekti kimi seçilmişdir. Həmçinin Milli Kitabxananın oxucuları arasında keçirilmiş anket sorğusunun nəticələri hərtərəfli təhlil edilərək 3 illik zaman çərçivəsində diaqramlarla əks etdirilmişdir.




Müəllif oxucuların informasiya mədəniyyəti vərdişlərini daha da inkişaf etdirmək üçün bu istiqamətdə kitabxanaların qarşısında duran əsas vəzifələrə də diqqəti yönəltmişdir. Bu istiqamətdə irəli sürülmüş təkliflər Malayziya, Rusiya, Türkiyə, Özbəkistan milli kitabxanalarının qabaqcıl təcrübəsinə uyğun şəkildə müəyyən edilmişdir. Sonda tədqiqatın yekunu olaraq əldə edilən əsas elmi-nəzəri və təcrübi nəticələr göstərilmiş, informasiya mədəniyyətinin formalaşmasında kitabxanaların daha fəal iştirakına və roluna dair tövsiyələr verilmişdir.

**Nadir İSMAYILOV**
**pedaqogika üzrə fəlsəfə doktoru, BDU-nun kafedra müdiri**

# Müəllifin ilk kitabı

"Elm və təhsil" nəşriyyatında "İlham çeşməsi" qəzetinin redaktor müavini Səbahət Lənkəranlının "Əllərin yetməyən bir mələyəm mən" adlı şeirlər kitabı çapdan çıxıb.

Müəllifin ilk kitabında "Eşqin zirvəsi", "Apardı", "Ağlımı başımdan almısan", "Anama", "Bakı", "Belə yaranmışam", "Bir cənnətdir mənim bağçam", "Dağlara, dağlara" və s. şeirləri toplanıb. Poetik bir dillə hiss və duyğuların dilə gətirildiyi şeirlərdə yurdsevərlik, milli-mənəvi dəyərlərə bağlılıq, xeyirxahlıq və nəcib duyğuların tərənnümü könül oxşayır. Əminik ki, kitabla tanışlıq oxucularda da xoş təəssürat yaradacaq.

**S.FƏRƏCOV**

## Xatirə təqvimi — 17-19 dekabr

### Azərbaycan

**17 dekabr 1905** – Xalq şairi Osman Sarıvəlli (Osman Abdulla oğlu Qurbanov; 1905 – 3.7.1990) Qazax rayonunun Sarıvəlli (İkinci Şıxlı) kəndində anadan olub. Bir çox şeirlərinə mahnılar bəstələnib.

**17 dekabr 1924** – Filologiya elmləri doktoru, Əməkdar jurnalist, professor Şirməmməd Ağaməmməd oğlu Hüseynov (1924 – 24.6.2019) Şəkidə doğulub. Mətbuat tariximizin, Xalq Cümhuriyyətinin, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli irsinin öyrənilməsi və təbliğində böyük xidmətləri var.

**17 dekabr 1987** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (29.8.1929 – 1987) vəfat edib. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub.

**17 dekabr 1993** – Xalq yazıçısı, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (28.10.1911 – 1993) vəfat edib. "Gələcək gün", "Böyük dayaq" romanları, "Həyat", "Kəndçi qızı" pyesləri və s. əsərlərin müəllifidir.

**18 dekabr 1928** – Tanınmış xanəndə Qulu Rüstəm oğlu Əsgərov (1928 – 11.6.1987) Salyan rayonunda doğulub. Muğam və xalq mahnılarının bənzərsiz ifaçısı olub, opera tamaşalarında Məcnun ("Leyli və Məcnun"), Şah İsmayıl ("Şah İsmayıl") və s. rollarda çıxış edib.

**18 dekabr 1930** – Tarix elmləri doktoru, professor Süleyman Sərdar oğlu Əliyarlı (1930 – 16.1.2014) Beyləqan rayonunun Şahsevən kəndində anadan olub. "Azərbaycan tarixi üzrə qaynaqlar", "Azərbaycan türklərinin etnogenezi" və s. əsərlərin müəllifidir.

**18 dekabr 1957** – Yazıçı, dramaturq, şair Əməkdar incəsənət xadimi Əyyub Cəbrayıl oğlu Abbasov (1905-1957) vəfat edib. "Zəngəzur" romanı, "Şəfəq", "Bahar nəğməsi" və s. pyeslərin müəllifidir. Bakı Teatr Məktəbinin direktoru olub.

**19 dekabr 1921** – Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatı laureatı Mikayıl Hüseyn oğlu Abdullayev (1921 – 21.8.2002) Bakıda anadan olub. "Çəltikçi qızlar", "İmadəddin Nəsimi" və s. məşhur əsərlərin, nəşrlərə illüstrasiyaların, "Nizami" metro stansiyasının bədii tərtibatının müəllifidir. "Hindistan" silsiləsinə görə Cəvahirləl Nehru mükafatına layiq görülüb.

**19 dekabr 1947** – Əməkdar incəsənət xadimi, rejissor, dramaturq Rəhman Balarza oğlu Əlizadə (1947 – 16.3.2013) Bakıda doğulub. Gənclər Teatrında, Azərbaycan Dövlət Kukla Teatrında baş rejissor işləyib. Pyesləri tamaşaya qoyulub.

**19 dekabr 1950** – Xalq artisti Gülşən Ağadadaş qızı Qurbanova (1950 – 17.11.2006) anadan olub. Gənc Tamaşaçılar Teatrında çıxış edib. Kinoda, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

### Dünya

**17 dekabr 1830** – Fransız yazıçısı Jül de Qonkur (Jules de Goncourt; 1830 - 20.6.1870) anadan olub. Yazıçı Edmon de Qonkurun (1822-1896) kiçik qardaşıdır. Fransanın ən nüfuzlu ədəbi təltifi olan Qonkur mükafatı (Prix Goncourt) onların şərəfinə təsis edilib.

**18 dekabr 1921** – SSRİ Xalq artisti, aktyor, sirk ustası Yuri Vladimiroviç Nikulin (1921 – 21.8.1997) anadan olub.

**19 dekabr 1864** – Alman bəstəkarı Adolf Zanberqer (Adolf Sandberger; 1864 - 1943) anadan olub.

**19 dekabr 1915** – Fransız müğənnisi və aktrisası Edit Piaf (Edith Piaf – Edith Giovanna Gassion; 1915 - 10.10.1963) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 18-20 dekabr

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 18 dekabr | "Sankt-Peterburq Opera" teatrının qastrol səfəri Ş.Quno - "Faust" (opera) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 19 dekabr | Ç.Aytmatov - "Manqurt" (kiçik səhnə) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 20 dekabr | İ.Kalman - "Silva" (rus dilində) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 20 dekabr | V.Muxaryamov – "Sürprizlər günü" | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 20 dekabr | T.Vəliyeva - "Cəza" (kiçik səhnə) | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 20 dekabr | S.Y.Marşak - "Pişiyin evi" | 12.00 14.00 |
| | Azərbaycan xalq nağılı - "Şəngülüm, Məngülüm" | 16.00 |

**Şuşa Dövlət Musiqili Dram Teatrı (S.S.Axundov küç. 48)**

| | | |
|---|---|---|
| 20 dekabr | C.Cabbarlı - "Solğun çiçəklər" | 19.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 18 dekabr | Xalq artisti Nəzakət Teymurova və Əməkdar artist Ehtiram Hüseynovun iştirakı ilə bağlı "Qəfil gün doğsa bir gecə" adlı konsert | 19.00 |
| 20 dekabr | Xalq artisti Emin Ağalarovun "Good love 2019" adlı konserti | 20.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 18 dekabr | Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri Bədii rəhbər Ağaverdi Paşayev; solist Rəvanə Quliyeva (xanəndə) | 19.00 |
| 20 dekabr | Azərbaycan vokalçıları festivalı çərçivəsində konsert Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri Bədii rəhbər Fəxrəddin Kərimov | 19.00 |

**Filarmoniyanın Kamera və orqan musiqisi zalı (28 May küç. 41)**

| | | |
|---|---|---|
| 19 dekabr | Azərbaycan vokalçıları festivalı çərçivəsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin konserti | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 18 dekabr | Azərbaycan vokalçıları festivalı - XX əsr bəstəkarlarının mahnı və romanslarından ibarət konsert | 19.00 |
| 20 dekabr | "Unudulmayanlar" layihəsi çərçivəsində Xalq artisti, muğam ustadı Əbülfət Əliyevə həsr olunmuş xatirə gecəsi | 19.00 |

**Azərbaycan Dövlət Mahnı Teatrı (R.Behbudov küç. 12)**

| | | |
|---|---|---|
| 18 dekabr | Xalq artisti Sərxan Sərxanın və "Qaya" Dövlət Ansamblının konserti | 19.00 |

# "Nəsimi" baleti Samsun səhnəsində



Türkiyənin Samsun şəhərindəki Dövlət Opera və Balet Teatrında görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Nəsimi" baletinin premyerası olub. Layihə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyi münasibətilə TÜRKSOY tərəfindən elan olunan "Nəsimini anma ili"nin silsilə tədbirləri çərçivəsində gerçəkləşib.

Tamaşada Samsun Opera və Balet Teatrının sənətçiləri – Nəsimi rolunda Orçun Ünal, şairin həyat yoldaşının rolunda Busə Cengiz, həmçinin İdil Şengül (Nəsiminin qızı), Süleyman Taşçıoğlu (Misir sultanı) və başqaları çıxış ediblər.

Premyera böyük maraqla qarşılanıb, tamaşaçılar yaradıcı heyəti hərarətlə alqışlayıblar.

Premyeradan sonra Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Samsun valisinin müavini Sezgin Üçüncü və ölkəmizin TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı yaradıcı heyətlə görüşüb, səfirliyin və TÜRKSOY-un adından təşəkkürnamə və xatirə hədiyyələri təqdim ediblər.

Qeyd edək ki, Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi "Nəsimi" baletini səhnələşdirmək üçün Azərbaycanın xalq artistləri – dirijor Yalçın Adıgözəlova, xoreoqraf Kamilla Hüseynovaya, həmçinin baletin yeni librettosunun müəllifi Əjdər Ulduza müraciət edib. Azərbaycan sənətçiləri "Nəsimi" baletinin Türkiyə premyerasını uğurla gerçəkləşdirmək üçün böyük səy göstəriblər.



Xalq artisti, maestro Yalçın Adıgözəlov dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun "Nəsimi" baletinin Türkiyə premyerasını Azərbaycan balet məktəbinin uğuru kimi qiymətləndirib. Onun sözlərinə görə, baletin Samsun şəhərində tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanması, hərarətli tamaşaçı alqışları yaradıcı heyətin zəhmətinə ən səmimi qarşılıq oldu.

**Mehparə SULTANOVA**
**Ankara**

# Kölndə Qara Qarayevə həsr olunmuş tədbir

Dekabrın 13-də Almaniyanın Köln şəhərindəki "Sankta Klara" kamera musiqisi zalında böyük Azərbaycan bəstəkarı Qara Qarayevin xatirəsinə həsr olunmuş "Qara Qarayev – ölməz dühə" adlı konsert proqramı keçirilib.



Tədbir Köln şəhərinin Mədəniyyət şöbəsinin, Alman-Azərbaycan Forumunun dəstəyi və Avropa Əməkdaşlıq Forumunun təşkilati yardımı ilə reallaşıb.

Konsertdə Alman-Azərbaycan Forumunun mədəniyyət və incəsənət şöbəsinin rəhbəri Samirə Patzer-İsmailova çıxış edərək Qara Qarayevin yaradıcılığından bəhs edib.

Azərbaycanlı və alman musiqiçilər – Əməkdar artist Elnarə İsmayılova (piano), Anar İbrahimov (skripka), Martin Lindsej (vokal) Qara Qarayevin kamera-instrumental əsərlərini ifa ediblər. Proqramda Qara Qarayevin seçilmiş prelüdləri, "Don Kixot" simfonik qravüralarından parçalar, skripka və fortepiano üçün sonata, "Yeddi gözəl" baletindən parçalar, bəstəkarın Aleksandr Puşkinin sözlərinə bəstələdiyi iki romansı və başqa əsərləri səslədirilib.

Tədbirdə Köln şəhəri Mədəniyyət şöbəsinin müdiri Kristof Müller, WDR radio və televiziya şirkətinin nümayəndəsi, Qara Qarayev musiqisinin yazıldığı disklərin prodüseri Bernhard Valerius, Köln Musiqi Akademiyasının prorektoru Tilman Klaus, qiraətçi sənətkar Peter Tonqer, Köln Musiqi Akademiyasının dekanı Brigitte Lindner, azərbaycan diasporunun və alman ictimaiyyətinin üzvləri iştirak ediblər.

Eyni zamanda tədbirdə Köln şəhərində yaşayan rəssam Marqarita Kərimova-Sokolovanın Qara Qarayev musiqisinə həsr etdiyi rəsm əsəri, pianoçu Elnarə İsmayılovanın Qara Qarayevin fortepiano əsərlərindən ibarət olan və Almaniyanın WDR şirkətinin dəstəyi ilə yazılmış diski, daha sonra Almaniyanın "Bellman" nəşriyyatında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə işıq üzü görmüş "Qara Qarayevin fortepiano üçün seçilmiş əsərləri" nümayiş etdirilib.

Konsert Azərbaycan musiqisinin Avropada təbliğinə və iki ölkə arasında mədəniyyətlərarası dialoqun inkişafına daha bir töhfə olub.

# Onuncu simfoniya bitəcəkmi?

## Bethovenin musiqisini tamamlamaq süni intellektə həvalə olunub

Musiqişünaslarla proqramçılar Lüdviq van Bethovenin yarımçıq qalmış 10-cu simfoniyasını bitirməyə cəhd göstəriblər. Bu çalışmanın nəticəsi 2020-ci il aprelin 28-də elan ediləcək. Bu günün seçilməsi isə təsadüfi deyil. Aprelin 28-də dahi alman bəstəkarının anadan olmasının 250 illik yubileyi qeyd ediləcək.

10-cu simfoniyaya gəlincə, Bethoven 9-cu simfoniya və "Fərəh" odası üzərində çalışdığı zamanlarda bu əsəri yazmağa başlayıbmış. Lakin əcəl bəstəkara bu əsəri bitirməyə imkan vermir. Bəstəkarın vəfatından sonra onun arxivindən simfoniyanın bir neçə əlyazma qeydləri və əsərin planı aşkar edilir. İndisə Bethovenin bütün əsərlərini təhlil etmiş proqramların və avtomat tədrisin köməyilə əsəri bitirməyə çalışırlar. Onların fikrincə, süni intellekt partituranın davamını yaratmağa kömək edəcək.

**GÜLCAHAN**

# Növbəti "Zima" festivalının qala-konserti keçirilib



Dekabrın 14-də Heydər Əliyev Sarayında "Beat Group" şirkətinin təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Zima 2019" Beynəlxalq Uşaq Festivalının qala-konserti keçirilib. Konsertdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Bu il festivalda iştirak etmək üçün 110 uşaq müraciət edib və təşkilat komitəsi onlardan arasından 20 ifaçını seçib. Tədbirin aparıcıları bu dəfə də gənc artistlər Rüfət Məmmədov və Suel Heybətova olublar.

Konsertdən əvvəl iştirakçılar qırmızı xalının üzərindən keçiblər və festivalla bağlı təəssüratlarını bölüşüblər. "Səs. Uşaqlar" şousunun altıncı mövsümünün qalibi Ərcan Maksim "Zima" festivalında iştirak, Azərbaycan tamaşaçıları qarşısında çıxış etmək imkanı yaratdıqlarına görə təşkilatçılara təşəkkürünü bildirib.

Konsert proqramında Xalq artisti Aygün Kazımova və Cəlal Başirli birlikdə "Qara gözlər" mahnısını ifa ediblər. Əməkdar artist Sevda Ələkbərzadə isə Fəxriyyə Əliyeva ilə səhnəni paylaşaraq "Qal, sənə qurban" mahnısını təqdim ediblər.

Gənc istedadların ifaları maraqla qarşılanıb. Sarayın səhnəsində Türkiyə, Ukrayna, Gürcüstan, Qazaxıstan, Fransa və Böyük Britaniya təmsilçiləri də çıxış ediblər.

"Zima" festivalı uşaqların musiqi bayramıdır. Hər ifaçı böyük səhnəyə çıxmaqla artıq özünü qalib saya bilər. Sonda bütün iştirakçılara diplomlar və xatirə hədiyyələri təqdim edilib.

Qeyd edək ki, "Zima" festivalının iştirakçıları müxtəlif nüfuzlu beynəlxalq müsabiqələrdə uğurla iştirak edirlər. "Zima 2017"nin iştirakçısı Rüstəm Kərimov "San-Remo Junior 2017" Uşaq-gənclər musiqi yaradıcılıq festivalının xüsusi mükafatına layiq görülüb. "Zima 2018" festivalının iştirakçısı Aleksandr Zazarəşvili isə Ukraynada "Qolos. Deti" televiziya müsabiqəsinin qalibi olub.

# "Musiqi ilə qaranlığı aydınlatma"

Xəbər verdiyimiz kimi, Kolumbiyanın paytaxtı Boqotada UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 14-cü sessiyası keçirilib. Sessiya çərçivəsində UNESCO-da akkreditasiyadan keçmiş qeyri-hökumət təşkilatlarının beynəlxalq forumu da reallaşıb.

"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin nümayəndəsi Fazil Qasımov forumda ölkəmizi təmsil edib. O, forumda "Musiqi ilə qaranlığı aydınlatma" adlı layihənin təqdimatını edib.

Layihə çərçivəsində Azərbaycanda görmə məhdudiyyətli musiqiçilərin beynəlxalq festivalının təşkil olunacağı diqqətə çatdırılıb. Forum iştirakçıları görmə məhdudiyyətli azərbaycanlı musiqiçilər haqqında nümayiş edilən qısa filmi maraqla qarşılayıb.

F.Qasımov sessiyanın açılış mərasimində UNESCO-nun baş direktoru Odri Azuleyə layihə barədə məlumat verib. Baş direktor "Musiqi ilə qaranlığı aydınlatma" layihəsinə dəstəyini ifadə edib.

Xatırladaq ki, "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi 2016-cı ildə UNESCO-nun "Qeyri-maddi mədəni irsin mühafizəsi üzrə Konvensiya"ya üzv dövlətlərin Baş Assambleyasının 6-cı sessiyasında təşkilatda akkreditasiyadan keçib.

# Kitablar əsasında çəkilmiş ən yaxşı xarici filmlər

Kitablar, əsərlər, filmlər, ssenarilər...Hər bir film kitab kimi bir əsər, hər bir kitab isə film kimi bir hekayədir deyirlər. Bəzən filmlər ssenaridən, bəzən isə elə sevilən, dillər əzbəri olan kitabların sayəsində yaranar. Son dövrlərdə roman və avtobioqrafik əsərlər üzrə çəkilən filmlərə maraq üstünlük təşkil edir. Onlardan hansının uğurlu olduğunu demək də bir az çətindir. Lakin kino mütəxəssisləri son dövrdə ədəbi əsərlərin motivləri üzrə ekranlaşdırılmış ən yaxşı 7 filmin adını açıqlayıblar...









Bu sırada ilk yerdə 2016-cı ildə Pola Honkinsin "Qatarda qız" romanı əsasında çəkilən film gəlir. Ekran əsəri sirlərlə dolu detektivdir, lakin bununla belə, onu psixoloji triller də adlandırmaq olar. Əsərin baş qəhrəmanı Reyçelin ağır bir taleyi var. O, ərindən ayrılıb, işini itirib və içkiyə aludə olub. Onun bir əyləncəsi var – qatarla Londona gedib, orada, sadəcə, veyllənmək. Qonşuları isə düşünür ki, onun işləri qaydasındadır və o hər gün işə gedir. Qatarla gedərkən o, yeni evliliklə xoşbəxt olan keçmiş ərinin evini müşahidə edir. Amma qonşu ev də onun diqqətini çəkir, Reyçel hesab edir ki, orada ideal bir ailə yaşayır. Günlərin birində ideal evin sahibəsi Cess yoxa çıxır və bu barədə bütün qəzetlər yazırlar. Reyçel də həmin ərazidə baş vermiş bir hadisənin şahidi olur...

40-dan çox dildə nəşr olunmuş əsərin ümumi tirajı 3 milyonu ötüb. ABŞ istehsalı olan filmin rejissoru isə Teyt Teylordur.

Sıralamada ikinci yeri Amerika yazıçısı Deyv İqqersin eyniadlı əsəri əsasında lentə alınan "Kral üçün holoqram" filmi tutur. Alan Kley uğurlu biznesmendir. Ancaq onun biznesi iflasa uğramaq üzrədir. O, bütün problemlərdən qaçmaq üçün Səudiyyə Ərəbistanına yola düşür. Onun niyyəti yeni texnoloji layihəsini reallaşdırmaqdır. Lakin kralla görüşü gözlədiyi müddətdə o özü üçün sirli ərəb dünyasını kəşf edir.

Almaniya, ABŞ, Fransa, Böyük Britaniya kinematoqrafçılarının birgə ərsəyə gətirdiyi filmin rejissoru Tom Tıkverdir, baş rolda Tom Henks çəkilib.

Üçüncü yerdə Stiven Kinqin "O" romanı əsasında çəkilən, 2017-ci ildə ekranlara çıxan film gəlir. Stiven Kinq əsərləri ən çox oxunan, ekranlaşdırılan və səhnələşdirilən müasir Amerika yazıçılarındandır. "Warner Bros" kinostudiyasının çəkdiyi filmin rejissoru Andres Muskettidir. "O" dramatik qorxu filmi şəhər kanalizasiyasında yaşayan, gücünü qorxudan, pərişanlıqdan və nifrətdən alan, kloun Pennivayz obrazındakı naməlum məxluqdan və onun öldürmək istədiyi bir qrup uşaqdan bəhs edir.

Növbəti film amerikalı pilot-konstruktor Çesli Sallenberqerin "Salli" avtobioqrafik kitabının əsasında lentə alınan "Qudzonda möcüzə" filmidir. Filmin rejissoru Klint İstvuddur, baş rollardan birini isə Tom Henks oynayır. Filmdə təyyarənin qəza zamanı Qudzon çayının üzərinə endirilməsindən bəhs edilir.

2016-cı ildə ekranlara çıxan "Aslan" filminin rejissoru Hard Devisdir. 5 yaşlı hindli uşaq qardaşının geri dönməsini gözləyən zaman qatar vaqonunda yatıb qalır. Oyanan zaman evindən minlərcə kilometr uzaqda Kəlkəttə şəhərində olduğunun fərqinə varan Saroo böyük mübarizələrdən sonra avstraliyalı bir cütlük tərəfindən övladlığa götürülür. İyirmi beş il sonra Saroo ailəsini tapmaq üçün səfərə çıxır. Film Sara Brayerlinin "Evə aparan uzun yol" avtobioqrafik əsəri əsasında lentə alınıb.

2016-cı ildə Jojo Moyesin "Səndən öncə mən" əsəri əsasında britaniyalı rejissor Tea Şerrok "Səninlə görüşənədək" adlı filmi ərsəyə gətirib. Luiza Klark adi bir həyat yaşayan, öz balaca kəndindən bir addım belə qıraqa çıxmayan sadə qızdır. O, işə olan ehtiyacı üzündən qəza nəticəsində ömürlük əlil arabasında yaşamağa məhkum olmuş Uill Treynora baxmaq məcburiyyətindədir. Uill hər zaman dəbdəbəli həyat yaşayıb. Bütün həyatı ekstremal idman növlərində, dünya səyahətlərində keçib, indi isə bu cür yaşamağa davam gətirməyəcəyinə əmindir.

Nəhayət, kino mütəxəssislərinin sıralamasındakı yeddinci filmi 2015-ci ildə amerikalı rejissor Adam Makkey Maykl Luisin "Böyük oyun. Maliyyə qəzalarının məxfi yayları" kitabı əsasında çəkib. Ekran əsəri 2016-cı ildə ən yaxşı ssenari kateqoriyasında "Oskar" mükafatını qazanıb.

**Lalə AZƏRİ**

# Fransa-Azərbaycan ədəbi əlaqələri müzakirə edilib

Fransanın Azərbaycandakı səfiri Zaxari Qross ilə Azərbaycanda Fransa İnstitutunun direktoru Moris Rufin dekabrın 16-da Dövlət Tərcümə Mərkəzində olublar.

Görüş zamanı iki ölkə arasında ədəbi əlaqələr, perspektiv layihələr ətrafında fikir mübadiləsi aparılıb. Bu il fransız dilinə çevrilərək Strasburqda nəşr edilmiş "Azərbaycan ədəbiyyatı antologiyası", həmçinin Jan Anuy, Şarl Bodler, Pol Verlen, Andre Morua, Alber Kamyu, Fransua Moriak, Artur Rembo kimi tanınmış Fransa yazıçı və şairlərinin əsərlərinin müxtəlif illərdə Azərbaycan dilində nəşri ilə bağlı məlumat verilib.

Azərbaycan ədəbiyyatının Fransada tanıdılması və yayımı, eləcə də Fransa ədəbiyyatı ilə Azərbaycan oxucusunun tanış edilməsi istiqamətində nəzərdə tutulan layihələr müzakirə edilib.

Görüşün sonunda səfirə Dövlət Tərcümə Mərkəzinin son nəşrlərindən olan A.Moruanın "Vəsiyyətnamə" kitabı hədiyyə edilib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4965
**Sifariş:** 4313
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.